*Allahyar XOCALI*

# VƏTƏN AĞRISI, TORPAQ YANĞISI

**BAKI - 1993**

X 34(93).

Redaktoru **Vasif Quliyev**

Kitabın işıq üzü görməsində maddi köməklik göstərdiyinə görə İmişli pambıqtəmizləmə zavodunun direktoru Məmi Atakişiyevə öz minnətdarlığımızı bildiririk.

**Allahyar Xocalı.** Vətən ağrısı, torpaq yanğısı. Bakı, «Azərbaycan» nəşriyyatı, 1993.—72 s.

**4804000000—034(93) M 670(07)—93**
**X 34(93) Azərb.**

**© «Azərbaycan» nəşriyyatı,**
**«Şuşa» şirkəti, 1993.**

## KİTABIN İÇİNDƏKİLƏR


Vətən ağrısı, torpaq yanğısı
Vidadini kəsməyə apardılar
Bakılı 21 nəfər
Talehin tale yazısı
Ölümün astanasında
Məzarsız şəhidlərin atası
Beş ay əsirlikdə
Ölüm əl çəkmirdi
Ölmək istəsək də
Xocalının son döyüşü
Nəzir pulu
Mənim xilaskarım
Onlar ayrı düşüblər
Qırğından keçən uşaq
Gülablı dağlarında
Qarşımızı meyidlər kəsmişdi
Əlağalıya yolsuz yollarla
Qanlı yamac, qanlı yol
Ovçu Mürşüd
Yönü qibləyə bir nurani
Bələdçim bir quş idi
Oğlumun meyidini gətirdim
Araz Səlimov kimdir?
Xocalının son günü
Allaha inandım
On iki gün çovğunda
«Bizi öldür» dedim
Bizə özümüzünkülər də atırdı
Bədbəxt türklər
Şelli uşaqları
Mahir snayper
Xocalı prokuroru
Xocalılar
Xocalı faciəsi ilə əlaqədar həlak olmuş şəxslərin siyahısı
Faciədən əvvəl Xocalı şəhərinin ermənilər tərəfindən atəşə tutulması nəticəsində həlak olmuş şəxslərin siyahısı
Xocalı hadisəsi ilə əlaqədar itkin düşmüş və indiyə qədər taleyi haqqında məlumatlar olmayan şəxslərin siyahısı
Hadisə ilə əlaqədar ermənilər tərəfindən girov götürülmüş və sonrakı taleyi məlum olmayan xocalıların siyahısı
Xocalı faciəsi ilə əlaqədar üzvləri həlak olan və itkin düşən ailələrin siyahısı

# VƏTƏN AĞRISI,
# TORPAQ YANĞISI

Belə nəql edirlər ki, keçmiş zamanlarda varlı, mülklü bir kəndə bir nəfər gəlib deyir ki, sizin bu yerlər mənim çox xoşuma gəlir. Mənə buralarda bircə mıxça yeri verin, ora bir dənə mıxça sancım. hər dəfə buralara gələndə o mıxçaya baxıb fəxr edim ki, heç olmasa, bu gözəl yerlərdə mənim də bir mıxça yeri qədər yerim var.

Camaat deyir ki, a kişi, bir mıxça yeri nədir ki?! Gəl, sənə geniş sahə yeri ayıraq, özünə kefin istədiyi kimi ev-eşik düzəlt.

Qərib adam bu təklifdən imtina edir və bir mıxça yeri bəsimdir—deyir. Kənd əhli razılığa qəlib, bir ağızdan «mıxçanı hara istəyirsən sanc» deyir. Qərib adam kəndin ortasına bir mıxça çalıb deyir: — Deməli, bu mıxça mənimdir, burdan nə istəsəm, asa bilərəm. And için ki, mıxçaya toxunmayacaqsınız və ordan hər nə assam, nə ona, nə də mənə dəyməyəcəksiniz.

Camaat and-aman edir ki, heç kəs sənə gözün üstə qaşın var da deməyəcək. Qərib adam gətirib, mıxçadan bir cəmdək asır. Yayın isti günündə cəmdək qaldıqca iylənib bütün kəndi bürüyür. Kənd əhli yığışıb qərib adama deyir ki, axı, cəmdəyin iyi bizi öldürdü. Onu aparıb bir yerdə torpağa basdır. Qərib «şərtimiz şərtdir» — deyir. — Axı, and içmisiniz. — Camaat bu kələkbaza aldandıqlarını bilib, ordakı ev-eşiklərini tərk edərək başqa yerə köçür. Bir mıxça yeri alan qərib böyük bir əraziyə sahib olur.

Rusiya həmin mıxçanı Türkiyə ilə Azərbaycan arasında sancıb, erməni adlı bir iyli cəmdəyi də onun başına keçirib. İllər keçdikcə bu iyli cəmdək ətrafındakıları itələyərək Türkiyə və Azərbaycan arasına paz şəkli formasında daxil olmuşdur.

Əslində, «Böyük Ermənistan» adlı bir dövlət olmamış və heç bir zaman da olmayacaq. «Böyük Ermənistan» məfhumunu ermənilər yox, ruslar qondarmışlar. Və o qondarma ad ilə də yüz illər boyu erməni və türk xalqlarını bir-birinə qırdırmışlar.

Tatarlarda belə bir məsəl var: Rus tatara deyir ki, ey tatar, ayaqların niyə əyridir? Tatar cavab verir [3-4] ki, niyə də əyri olmasın, axı, üç yüz il bir qıçımın üstündə rusun boynundan basmışam.

Ruslar uzun illər Çingiz xanın, Batı xanın, Teymurləngin, Osmanlı imperiyasının əsarətində olmuşlar. Çar I Nikolay deyib ki, çalışın bir daha türgün əsarətinə düşməyin, ikinci dəfə düşsəniz, Ömrü boyu bu əsarətdən qurtula bilməyəcəksiniz. Deyir ilan vuran ala çatıdan qorxar. Rusları qorxudan türk xofudur. Məhəmməd peyğəmbər demişdir ki, Allah türkləri zalımlara zülm edib, dünyada əmin-amanlıq yaratmaq üçün yaradıb. Xaçpərəstlik din yox, dinsizlikdir. Çünki xaçpərəstlərə heç nə haram buyurulmur. Onlarda namus, əxlaq sərbəstdir, olsa da olar, olmasa da. Dünyada din deyilən bir din varsa, o da İslam dinidir. Ruslar bu dinin qüvvəsindən də hədsiz dərəcədə qorxur. Çünki İslamda tərkidünyalıq yoxdur. Dünyada əbədiliyini hiss edən bir millət ölümdən qorxmur, qarşısındakı düşmənin üstünə çəkinmədən gedir. Quranın tərcüməsinə illərlə imkan verməmək də bu səbəbdən doğur. Əgər rusların ermənilərə canı yansaydı, onları bomboş rus çöllərində yerləşdirər, bu işlək millətdən özləri də faydalanardılar. Yersizləri türklərin içində yerləşdirməklə məqsəd ondan ibarət olub ki, onları daim qızışdırıb qısqırtsın və türklər imkan tapıb, göz açıb, bu sarı iblislərə toxuna bilməsinlər.

Ruslar erməniləri nə «Böyük Ermənistan» yaratmış bir xalq kimi, nə də torpaqsız, vətənsiz işlək erməni kimi görmək istəmir. Elə-belə, «ni rıba, ni myaso». Ruslar dərk edir ki, ermənilər qüvvətli bir dövlət olsalar, sabah Rusiyaya da meydan oxuyacaqlar. Onu da dərk edirlər ki, əgər dövlət olmasalar, dünyanın hər tərəfinə pərən-pərən səpələnəcəklər. Onda Rusiya üçün böyük türk qorxusu yaranar. Bütün türk-erməni qırğınlarının baisi ermənilər olsa da, səbəbkarı ruslar və türklərdən qorxan xaçpərəstlər olmuşlar. Bu avam, küyə gedən erməni adlı məxluq XX əsrin sonunda da millət yox, bir millətin əlində alət olduqlarını hələ də dərk edə bilməyiblər. Sovet dövründə də ermənilərin bir millət kimi yox ola bilməsindən qorxan ruslar onların əlifbasının, saxta mədəniyyətinin inkişafına şərait yaratmaqla bərabər, Azərbaycan-türk mədəniyyətini pərdələmiş, ali məclislərdə danışmağa onun dilini yasaq etmişdir.

[4-5]

Müsəlmançılığın ilkin şərtlərindən biri olan sünnət mərasimi çox vaxt çox yerlərdə, əsasən də, ali vəzifə sahiblərinin ailələrində məxfi keçirilirdi. İrana tərəf baxanda «panislamist», Türkiyəyə tərəf baxanda «pantürkist» markası yapışdırıb, gedər-gəlməzə yola salırdılar. heç təsadüfi deyil ki, 1828-ci il Türkmənçay müqaviləsindən sonra ermənilərin millət kimi formalaşması üçün ruslar Azərbaycan torpaqlarını müxtəlif vaxtlarda qoparıb, ermənilərə vermiş və «Ermənistan» yaratmışlar. İndiki Ermənistan ərazisinin 82 faizi Azərbaycan torpaqlarıdır. 114 min kv. km ərazi ilə rus əsarətinə düşən Azərbaycanın torpaqları qayçılanaraq 86,6 min kv. km-ə enmişdir. hələ bu bəs deyilmiş kimi ruslar ermənilərdə Naxçıvanı, Qarabağın dağlıq hissəsini və başqa əraziləri mənimsəmək üçün iştah dişi bitirmişlər.

Əsrin əvvəllərinə qədər ruslar, ingilislər və başqa Qərb dövlətləri məhsuldar torpaqlarda yaşayan türk və müsəlman xalqlarını daim əsarət altında saxlamağa çalışmışlar. Vaxtı ilə türk ordusunda xidmət etmiş Andronik Uzunyan türk ordusunun sirlərini ingilis kəşfiyyatına satmışdı. Bu satqınlığın üstündə qulağı kəsilib qovulan Andronik sonradan da rus siyasətinə xidmət etmiş, 1918-ci ildə Azərbaycandakı türk qırğınlarına başçılıq etmişdi.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra «beynəlmiləlçilik» pərdəsi altında sapı özümüzdən olan satqınları Moskva vəzifəyə qoymaqla millətimizi maddi, mənəvi və fiziki cəhətdən istismar etmişdir. Özünü «beynəlmiləlçi» kimi qələmə verməyə çalışan rəhbərlər erməniləri yüksək vəzifələrə təyin edirdilər. Onlar bu beynəlmiləlçilik çamuruna elə batmışdılar ki, nəinki ictimai yerlərdə, hətta evlərində də rus dilində danışırdılar. Onlar rus şair və yazıçılarının əsərlərini əzbərləmiş, bayağı rus musiqisinə qulaq asmaqla manqurtlaşmışlar, vəzifəyə ermənini, rusu gətirmişlər. Onlar Azərbaycan adət-ənənələrini, mədəniyyətini dərk etməməkdə nəinki xəcalət çəkmiş, hətta öz ana dillərində danışa bilməmələri üçün fəxr etmişlər. Özlərinə müavin etdikləri ermənilər zaman-zaman Azərbaycanın qaymağı olan imkanlı adamlarımızı, ziyalılarımızı məhv etmiş, millətimizin düşünən başlarını kəsib atmışlar. [5-6]Yaxşı yadımdadır, Heydər Əliyev MK-nın katibi olarkən ana dilimizdə danışanda hamı heyrət edirdi. Deyirdilər ki, ayə bir rəhbər qoyublar, bizim dildə sərbəst danışır.

Qarabağın dağlıq hissəsində azəri türklərinin çoxalmasında da H.Əliyevin xidmətləri olmuşdur. 1964-cü ilə kimi Stepanakert rayonunda yeganə orta məktəb 4 №-li Nizami adına orta məktəb idi. Bura Xocalıdan, Malıbəylidən, Kərkicahandan, Kosalardan kələn və Stepanakertdən olan uşaqların sayı hər sinifdə cəmi 10-12 nəfər olardı. Əliyevin hakimiyyətdə olduğu dövrdə Stepanakertin azərbaycanlı əhalisi 15 minə çatmış, Malıbəylidə, Kosalarda, Kərkicahanda, Xocalıda orta məktəblər açılmışdı. Stepanakert Pedaqoji İnstitutunda fakültələrin çoxu, tibb texnikumunda bir neçə fakültə Azərbaycan dilində olmuşdu. Bu dövrdə ermənilər yaşayan Cəmilli kəndinin əhalisi evlərini satmış, 120-dən çox evi azərbaycanlılar almışdı. Daşbulaq kəndində ermənilərdən çox azərbaycanlılar məskunlaşmış, Meşəli kəndi salınmışdı.

1933-cü ildə Stepanakertdə Məleykə Alış qızı İmanovaya və Səfər Binnət oğlu İmanova verilmiş pasportlara vurulmuş möhür rus və erməni dillərində yazılmışdı. Azərbaycan torpağında fəaliyyətdə olan möhürdə bir kəlmə də olsun türk dilində heç nə yazılmamışdı. Bircə fərəhləndirici hal odur ki, həmin pasportlarda milləti «türk» yazılmışdı. Moskvanın sədaqətli qulları dinimizi, dilimizi, adət-ənənələrimizi yasaq etməklə milləti kütləyə çevirib, hara istəyiblərsə sürükləyiblər.

Azərbaycanın pambıq becərilən aran rayonlarında dərmanın içində, qızmar günəş altında işləyən qadınlarımıza bir kölgəlik düzəltmək qeydinə qalmayanlar ruslar üçün Kəlbəcərdə, Şuşada, Naftalanda və başqa yerlərdə sanatoriyalar tikmişdilər. Uzun illər subtropik zona olan Lənkəran Moskvaya xidmət etmiş, nəinki Kremli, hətta bütün Moskva əhalisini ucuz xiyar, pomidor və başqa tərəvəz məhsulları ilə təmin edirdi. Oğuz şəhərində Kreml üçün farel balığı yetişdirilirdi.

Manqurtlar rus əxlaqsızlığını yerlərdə yaymaqdan başqa heç nəyə xidmət etmirdilər. Yerlərdə partiya sıralarına, əsasən, mütilər, yaltaqlar qəbul olunur, [6-7] əxlaqsızlığı bacaranlar, arvadını, qızını, namusunu çöllərə tullayanlar isə yuxarı vəzifələrə çəkilirdi. Belələrinə iş bacaran yox, sözə baxan deyirdilər. Beləliklə, yerlərdən sözə baxanlar zəncirvarı şəkildə Azərbaycan KP MK-ya kimi uzanırdı. Əxlaqsızlığın ən hündür zirvəsi də elə burda — MK-da yerləşirdi. Vətən, dil, torpaq, adət-ənənə, din təəssübü də onlara yad idi. Elə Moskvaya da bu, sərf edirdi. Paytaxt bu zəncirvarı qeyrətsizlikdən istifadə edib, respublikanı əsarətdə saxlayırdı. Bunlardan ustalıqla istifadə etməyi bacaran ermənilər Moskva qarşısında dəfələrlə «Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi» məsələsini qoymuşdular. Qazdan ayıq olan Moskva bu işin sonra pis nəticələr verə biləcəyindən ehtiyat edib, ermənilərin arzularını gözlərində qoymuşdu Əvvəllər Rusiya Moskvaətrafı torpaqlardan başqa, heç bir torpağın sahibi deyildi. Və qopardığı torpaqların sahibləri ərazilərini geri qaytarmaq iddiası etsəydilər, o, çıxılmaz vəziyyətdə qalardı. Ermənilərin uzun illər münasib məqam gözləməkdən gözlərinin kökü saralmışdı. Nəhayət, Amerika Kəşfiyyat İdarəsinin SSRİ-dəki agenti Mixail Qorbaçov hakimiyyətə gəldi. Amerikanın qorxduğu yeganə dövlət güclü hərbi potensiala malik SSRİ idi. Onunla müharibə etmək uduzmaq demək idi. Ona görə də onu yalnız içindən parçalamaq gərəkdi. Düşünülüb-işlənilmiş bir metod tapıldı: yenidənqurma, aşkarlıq. Küyə getməklə, xəyanətdə əsrlər boyu imtahandan çıxmış ermənilərə «Böyük Ermənistan» yaratmalarına imkan verildiyini xatırlatmaqla bu işə başladılar. Əslində, Amerikanı «Böyük Ermənistan» yaratmaq maraqlandırmırdı. Onun marağı yalnız rus imperiyasını dağıtmaq idi. Çünki Rusiya imperiya ölkələrinin sərvətləri hesabına daha iri addımlarla irəliləyirdi.

Məxfi iclaslardan sonra 1987-ci ildə ermənilər gizli vərəqələr yaymağa başladılar. Sonra bu vərəqələr açıq-aşkar erməni yaşayış məntəqələrinin, yollarının kənarlarına yapışdırıldı. Vərəqin birində yazılmışdı ki, «biz məqsədimizə çatana kimi azərbaycanlılarla sülh şəraitində davranmaq lazımdır.» Biz bu cür vərəqələri əldə edib Ağdam DTK-na vermişdik. Moskvaya, Bakıya yaxınlaşan təhlükə barədə yüzlərlə teleqram göndərmişdik.

Ancaq heç bir faydası olmurdu. [7-8] hətta Moskvaya rusca yaxşı bilən Cavanşir Əliyevi və Xocalı hadisəsində taleyi məlum olmayan Xocalının qeyrətli oğlu Elxan Şəfiyevi də göndərdik. Moskvanın ssenarisi ilə hazırlanmış oyunlara Azərbaycan hökumətinin susmasını görən ermənilər daha da fəallaşdılar. 1988-ci il fevral ayının 12-də Əsgəran qəsəbəsində «Qarabağın Ermənistana birləşdirilməsi» tələbi ilə mitinq keçirdilər. Mitinqdə Əsgəran rayon Partiya Komitəsinin birinci katibi Vaçaqan Qriqoryan dedi. —Bəsdir bu günə qədər gizli təbliğatımız, indi imkan yaranıb ki, açıq-aşkar Ermənistana birləşməyimizi tələb edək!—Mitinq sonralar Stepanakertə keçdi. Dalbadal teleqramlardan sonra Azərbaycan hökuməti, deyəsən, reaksiya vermək istədi. Ancaq küt və lal-dinməz Kamran Bağırov heç bir iş görə bilmədi. Yalnız Moskvadan Dağlıq Qarabağın Ermənistana verilməsini bəyan etmək üçün gələn adamlara xalqın etirazını çatdıra bildi. Bu Aran Qarabağ əhalisinin, guya, Əsgərana hücumu idi. Bu oyunda Qarabağın ilk şəhidləri — Bəxtiyar  və Əli doğuldu.

Azərbaycan hökumətinin öz torpaqlarını qoruya bilmək iqtidarında olmadığını görən Ermənistan Ali Soveti iclas çağırdı və qərar çıxardı ki, Dağlıq Qarabağ bu gündən Ermənistanın ərazisinə qatılır. hələ də bu günə kimi «Ermənistanın Azərbaycana qarşı elan olunmamış müharibəsi» kəlməsini işlədirlər. Daha dərk edən yoxdur ki, Ermənistan Ali Sovetdə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi qərarını çıxarandan Azərbaycana qarşı müharibə elan etmişdir. Moskvanın uzaqgörən siyasəti ilə, guya, Dağlıq Qarabağda vəziyyəti sabitləşdirmək məqsədi ilə vilayətdə xüsusi idarəetmə komitəsi yaradıldı. Ona rəhbərlik edən Arkadi Volski SSRİ Ali Sovetinə deputat seçiləcəyi ərəfədə azərbaycanlılarla görüşlər keçirir, şirin vədlər verirdi. Xocalı mədəniyyət evində onu pionerlər duz-çörəklə qarşıladı, gül-çiçək dəstələri verdi. hər görüşdə də özünü xəstə kimi göstərib, dərman içir, yazıq görkəm  alırdı.

Sonralar Volskinin duz-çörəyə naxələf çıxdığını görən azərbaycanlılar bir nəfər kimi ona səs verməyəcəklərinə söz verdilər. O zaman bütün nazirliklərin işçiləri qapı-qapı düşdülər ki, bəs Volskiyə səs verin. Uzun yalvar-yaxardan sonra Volskiyə səs toplatdıra [8-9] bildilər. O zaman mən Volskinin erməniləri və özümüzün başıboşlarımızı tənqid edən «Bir başa üç yumruq» adlı bir məqalə yazıb «Bakinski raboçi» qəzetinin müxbiri Vahid Səfixanova verdim. həmin məqaləni heç kəs dərc etmədi. Sonralar bu yazını «Kənd həyatı» jurnalının redaktoru alıb dərc etdi. Məqalə jurnalın 1990-cı il 6-cı nömrəsində işıq üzü gördü. Elə həmin vaxtlardan da Volski vilayət idarələrini Ermənistan tabeliyinə keçirməyə başladı. Xocalının 180 hektar torpaq sahəsini—Həsənabad sahəsini kəsib, vilayət istilik idarəsinə verdi. Burda, əsasən, azərbaycanlılar yaşayırdı. Ermənistandan qovulmuş azərbaycanlıların hesabına bu kənd xeyli böyümüşdü. Burda 35 azərbaycanlı, 4 erməni ailəsi yaşayırdı. Mən o zaman orda ibtidai məktəbin direktoru idim. Moskvaya, Azərbaycan MK-ya və vilayət prokurorluğuna camaatın imzası ilə göndərdiyim şikayət ərizəsinə yalnız DQMV prokurorunun müavini Mübariz Bayramovun imzası ilə cavab aldım. Moskva və Bakı hələ də susurdu. Bayramov məktubunda bildirirdi ki, xocalıların razılığı olmadan torpağı başqasına vermək olmaz. Arkadi Volskinin hərəkəti səhvdir. Ancaq səhvlər meydan sulayırdı. Bir tərəfdən də Xocalının Əsgərana yaxın hissəsi ermənilər tərəfindən zəbt edilirdi.

...Çox çəkmədən Həsənabadlıların çoxu, əsasən də, Ermənistandan gələnlər köçüb İsmayıllı rayonuna getdilər. Sonradan o biri azərbaycanlılar Xocalıya gəldi. Həsənabad ermənilərə peşkəş verildi.

Xocalıya Ermənistandan pənah gətirmiş 130 ailə Xocalıdan çıxarıldı. Eləcə də DQMV-nin azərbaycanlılar yaşayan məntəqələrinə pənah gətirmiş ermənistanlı qaçqınları zorla vilayətin ərazisindən çıxartdılar. Bir dəfə Əbülfəz Əliyev Xocalıya gəlmişdi və burda AXC-nin dayaq nöqtəsinin yaradılması üçün yığıncaq keçirilmişdi. Mən o zaman gərək ki, Bakıda idim. Gələndə idarə heyətinin sədri məni seçdiklərini bildirdilər. İdarə heyəti üzvlərinin kimlər olduğunu biləndə mən razı olmadım. Bildirdim ki, yenidən seçki aparılmalıdır. Nə isə... Xocalıların əksəriyyətini mədəniyyət evinə yığa bildik. Yığıncağı Əlif Hacıyev aparırdı. AXC-nin Xocalı dayaq dəstəsinin idarə heyətinin sədri vəzifəsinə yenə də məni namizəd [9-10]  verdilər və səs çoxluğu ilə yenidən mən seçildim. İdarə heyətinə başqa adamlar da seçildi. Sonradan bu idarə heyətinin AXC-nin Nizamnaməsinə uyğun iş aparmamasını, hara güclüdürsə o səmtə yıxılmasını görüb, özüm üzvlükdən çıxmaqla bərabər, Xocalı dayaq dəstəsinin yoxluğunu bildirdim. Beləcə də duyaq dəstəsi dağıldı.

Xocalıları 1989-cu ildə qırdırmaq istəyən qüvvələr var idi. Bir dəfə Tovuzdan Əli (Alyoşa) adlı qorxmaz, cəsur bir oğlan gəlib Xocalıya çıxdı. O özünü AXC-nin fəal üzvü kimi qələmə verirdi. Xocalı uşaqları ilə gecələr əməliyyatlara gedirdi. Avtobusla Ağdamdan gələndə o da avtobusda idi. Dedi ki, vacib məsələ var, gedək kənd Sovetinə. Alyoşa Elman müəllimə dedi ki, məktəbliləri, camaatı aeroporta yığıb tökmək lazımdır ki, İrəvandan gələn təyyarələr aeroporta enməsin. Bildirdim ki, əvvəla, təyyarə bizi Zvartnosdakı kimi qırar. İkinci bir tərəfdən, rusların ermənilərə işləməsi hamımıza məlumdur. Dörd bir tərəfimiz ermənilərdir. Əgər biz aeroporta yığılsaq, kəndi və bizi kim müdafiə edəcək? Ermənilər hər tərəfdən hücuma keçib, həm boş kəndi odlaya bilər, həm də aeroportda bizi mühasirəyə alıb qırarlar. Aeroporta təyyarənin düşməsi üçün ya bir traktor

sürüb orda saxlamaq, ya da asfaltı partlatmaq lazımdır. Biz kütləvi şəkildə təyyarənin enməsinə maneçilik törətməməliyik. Bu məsələ; ilə əlaqədar kəndin fəallarını Elman müəllim axşam idarəyə yığdı. Mən yenə də öz etirazımı bildirdim. Qalanları isə dedilər ki, Elman müəllim necə deyirsə, elə də edək. Çıxmaq lazımdır. Sabahdan arvad-uşaqları tökək aeroporta. Mən hirsimdən bayıra çıxıb siqaret yandırdım. Elman Məmmədovun içəridən səsi gəlirdi. O deyirdi: — Camaat, mən də Allahyarın fikri ilə razıyam. Camaatı aeroporta yığmaq olmaz. Qırılarıq. Özüm sizi sınayırdım ki, görüm siz nə deyirsiniz?—Beləliklə, aeroporta kütləvi şəkildə yığılmağımız baş tutmadı. Səhəri gün aeroporta yığılmağa razı olanlar məni görəndə «Müəllim, bağışla, axşam biz səhv eləmişik» deyirdilər.

Bəli, Xocalı üçün bu qırğın hardansa hazırlanmışdı. Mənim inadkarlığım, Elman müəllimin mənimlə [10-11] razılaşması o zaman törədilə biləcək Xocalı qırğınının qarşısını aldı.

Xocalıya şəhər statusu vermək ermənilərə psixi təsir göstərməkdən başqa, bir şey deyildi. Bir də ki, bu şəhərə yığışan camaat Ermənistandan gələnlər yox, Stepanakert qaçqınları idi. Ermənilər Şahbulaqdan Xocalıya, Malıbəyliyə, Kərkicahana kubik daşı aparan vertolyotları görəndə, həqiqətən də, bu torpaqların sahibi olmadıqlarını yəqin etdilər. Bu zaman hakimiyyətdə olan Polyaniçko münaqişəni sakitləşdirici yolla yox, uzatma metodu ilə aparırdı. Elə olmasaydı, rus hərbçiləri deməzdi ki, bizi bura erməniləri qorumaq üçün göndəriblər. 1988-ci ilin sentyabr ayının 18-də on min erməninin Xocalıya hücumu zamanı səkkiz nəfər Xocalı sakininə iki il həbs cəzası verilməsi rusların erməniləri qorumağa gəlməsinə əyani sübutdur. Bir də o yadımdadır ki, Xocalıda yaradılan milis dəstəsi işçiləri öz səlahiyyətli nümayəndələrindən silah istəyəndə o, cavab verdi ki, sizə silah versəm, gərək erməni milislərinə də verəm. Amma erməni milisləri avtomatla hərlənirdilər. Onları silahla Ermənistan təmin edirdi.

Onu da qeyd etməyi özümə borc bilirəm ki, sentyabrın 18-də 80-ə yaxın erməni öldürən xocalıların heç birinə Xocalı özünü müdafiə batalyonu yarananda silah vermədilər. Dedilər ki, sizin yaşınız keçib. Silahlar yalnız bəzi sözəbaxan uşaqlara, bir də idarə müdirlərinə verilmişdi. Məndən bəzən bunun nə üçün belə olduğunu soruşanda deyirdim:— Bədbəxt oğlu, niyə bilmirsən? Sənin, mənim yalnız canımız var. İdarə müdirlərinin həm canı, həm də pulu var. O, iki şeyin keşiyini çəkir, sən bir şeyin. Xocalıda sözəbaxan uşaqlara vəzifə də təhsilindən asılı olmayaraq çox asanlıqla verilirdi.

1992-ci il 26 fevral qırğını düşünülərək törədilmişdi.

Xocalı qırğını erməniləri dünyaya qaniçən millət kimi qələmə vermək üçün yaradılmışdı. Çünki ermənilər Sumqayıt hadisəsini əllərində bayraq edib, Azərbaycan xalqını vəhşi bir xalq kimi tanıtmışdı. Bunların əvəzində Sumqayıt hadisəsini kölgədə qoya biləcək bir azərbaycanlı qırğını törətmək lazım idi.

Dəfələrlə Ağdamda Musa Məmmədovun yanında [11-12] olmağımıza baxmayaraq, Xocalıya heç bir kömək edə bilmədik. Musa Məmmədova bildirdim ki, sən gələn yardımları «necə bölüşdürməkdən» savayı, heç bir iş görmürsən. Xocalılar acından öldüyü bir vaxtda Musa Məmmədov mətbuata «Qarabağa gələn yardımlar ünvanına çatdırılır»—deyə informasiyalar verirdi.

Xocalı avtobuslarının biri ilə on yeddi nəfərlə Bakıya yola düşdük. Orda «Səhər» qəzetinin müxbiri Şamil Sabiroğlu ilə görüşdük. Əbülfəz Elçibəyin qəbuluna getdik. Xocalının vəziyyətini ona danışdım. Bu, 1992-ci il fevralın 11-də olmuşdu. Elçibəy bizə bir nəfər qoşub, Ali Sovetə göndərdi. Adı yadımda deyil, bir nəfərə bizimlə görüşməsini xahiş etdi. Mən və Şamil o adamla görüşdük. Nəhayət, bildirildi ki, bu gün Xocalı məsələsinə aid Milli Şura çağırılacaq. İsmayıl Şıxlı, Tofiq Qasımov və Etibar Məmmədov mənim xahişimi nəzərə alıb bildirdilər ki, şərait yaradacağıq, şurada sən də iştirak edəcəksən.

Mütəllibov Şuraya axşam saat onda gəldi. Bildirdi ki, Milli Şuranın üzvlərindən başqa, heç kəs iştirak etməyəcək. Dedi ki, burda çıxardığımız qərarları bizdən əvvəl ermənilər bilir. Beləliklə, nə mən, nə Şamil, nə də jurnalistlər Şurada iştirak edə bilmədik. İclas gecə saat 3-də qurtardı. E. Məmmədova yanaşıb, həyəcanla soruşdum:—Nə oldu?—O, A.Mütəllibov çıxan qapını göstərib dedi:—Get prezidentdən soruş. Deyir ki, Yeltsinlə danışmışam, yaxşı olacaq...

Şamil Sabiroğlu bizi saat 4-ə işləmiş «Ovçular» mehmanxanasına apardı, orda rahatlandıq. Ümumiyyətlə, Ş. Sabiroğlu biz 17 nəfəri 3 gün öz cibinin pulu ilə yedirtdi. Onu mən Xocalıdan tanıyırdım.

Səhər Ali Sovetin qabağına nə qərar çıxardığını öyrənmək üçün gələndə bizi iki milis qarşıladı. Onlar bizə bildirdilər ki, çıxıb getsəniz, yaxşı olar. Sizə iki vertolyot ayırıblar. Ordakı arvad-uşaqları daşıyır. Burda «İstiqlal» qəzetinin bir müxbiri ilə görüşdüm. Məndən məqalə istədi. Elə pəncərənin qarşısında «Əsəblər tarıma çəkilib daha...» sərlövhəli bir məqalə yazdım. heç kəs inanmadı ki, məqaləni dərc edərlər. Dedilər ki, bu, Zərdüştün [12-13]  qəzetidir. Mütəllibovun əleyhinə yazılan yazıları verməyəcək.

Ancaq məqalə nöqtəsinə, vergülünə toxunulmadan 18 fevral 1992-ci il tarixli «İstiqlal» qəzetində dərc olundu. Sonra Türkiyə səfiri ilə görüşdüm. Bildirdi ki, Azərbaycandan ilk adamı qəbul edir. Hələ iş yerləri hazır deyil. Qarabağdan gəldiyim üçün mənə hörmət edir.

Yarım saatlıq söhbətimizdə xocalılara sığınacaq istəməklə yanaşı, Azərbaycan hökumətinin iç üzünü açıb tökdüm. Türkiyə səfiri bildirdi ki, danışıqlarımı həm Türkiyə, həm də Azərbaycan hökumətlərinə bildirəcək.

Ş. Sabiroğlu Türkiyə səfirliyinin qarşısındakı pillələri enərkən şəklimizi də çəkdi. «İki sahil»-dəmi, yoxsa, «Səhər» qəzetindəmi çıxmışdı.

Ayın 13-də Ağdama qayıtdıq. Demə, bizi aldadıblar. heç bir vertolyot göndərməyiblər. Yalnız çörək aparan bir vertolyota camaat doluşub, heç çörəyi düşürməyə də macal verməyiblər. Vertolyot da açıqca minənləri aparıb Gəncəyə töküb. Bu qədər xəbərdarlıqdan sonra xocalıları xilas etməmək, bizi aldadıb Yola salmaq nə deməkdir?... Bəli, Xocalı qırğını Sumqayıt hadisəsini kölgədə qoymaq üçün, Laçının, Şuşanın verilməsi, Ermənistanın Azərbaycana təcavüzünü dünyaya əyani şəkildə göstərmək üçün törədilmişdi.

Milli Məclisdə ya Əsgəranın aradan götürülməsi, ya da Xocalı sakinlərinin çıxarılması müzakirə olunmuşdu. Xocalıların çıxarılmasına demokratik blok razı olmamış, Əsgəranın götürülməsini bildirmişdi. Elə ona görə də iclas bir məsələyə görə 5 saat uzanmışdı. Mütəllibov Əsgəranın götürülməsindən ona görə qorxurdu ki, Sumqayıt hadisəsini kölgədə qoymaq əvəzinə, Sumqayıt hadisəsindən betər bir hadisə törənə bilərdi. Demokratik blok isə elə-belə Xocalını qurban vermək istəmirdi. Məhz, bu çəkişməyə görə Xocalıya vertolyot gəlməsi baş tutmamışdı. Ona görə də Mütəllibov Əsgəranın götürülməsinə razı olmuşdu. Fəhmin Hacıyev, Tamerlan Qarayev, Tahir Əliyev Ağdama gəlmişdi. Tamerlan Qarayevin Xocalı İcra hakimiyyəti başçısı Elman Məmmədova «Sabah səhər çayımızı Xocalıda içəcəyik» deməsi təsadüfi deyildi. Elə bu cür də olmalı idi. Əməliyyat hazırlanmışdı Ona görə də ermənilər tezliklə tədbir [13-14] görməli, Xocalını aradan götürüb Əsgəranı müdafiə etməli idilər. Ancaq bu əməliyyata ermənilər iki gün gecikməsinə baxmayaraq, müvəffəqiyyət qazandılar. Çünki Moskva ilə danışıqlar aparmış, pul təklif edib, 366-cı polku ancaq fevralın 25 - nə kimi ala bilmişdilər. 366-cı polkun rəhbərliyi veriləcək milyonların məbləğini Moskvaya bildirəndə cavab verilmişdi ki, onun yarısı qədər də versələr razı olun...

1992-ci il yanvarın 31-də Əsgəran, Naxçıvanik və Xanabad demək olar ki, alınmışdı. Mən Xocalı milis şöbəsinin rəisi, milis mayoru Sabir Məmmədovla birlikdə döyüşü müşayiət edirdim. Birdən Dadaş Rzayev «UAZ» markalı maşında gəlib, yanımızda dayandı.

Dadaş Rzayev döyüş bölgəsinə gələndən sonra bizim texnikalar geri çəkilməyə başladı. O zaman Naxçıvanikdə ermənilər bizim piyadaları mühasirəyə alıb qırdılar. Xəlil Rza Ulutürgün oğlu Təbriz də o oyunun qurbanı oldu. Naxçıvanikdə öldürüldü. Demə, Dadaş Rzayev Bakı ilə danışıb, «Əsgəranı almaq» şad xəbərini çatdıranda Bakıdan—«Əsgəranı almaq nədir, geri qayıdın» əmri verilmişdi. Bəli, döyüşən texnika Bakıdan idarə olunurdu.

Əgər Mütəllibovun Xocalının verilməsindən xəbəri yox idisə, haradan bilirdi ki, ermənilər xocalıların çıxması üçün 300 metr enində Ağdama tərəf koridor qoyublar. Heç demə, ermənilər Mütəllibovu aldadıbmış. Dünyada siyasət çox, Azərbaycanda da siyasətbazlar dəstə-dəstə. Elə bu dəstələrin fikir birliyi olmamasının qurbanı olmadımı xocalılar?

İndi də ona görə Xocalı qırğınının səbəbkarı üzə çıxarılmır ki, burda hər iki tərəfin, həm demokratik blokun, həm də o zamankı prezident aparatının günahı var.

... Budur, açın varaqlayın, oxuyun, yadda saxlayın əsrin faciəsini. Siyasət qurbanı xocalıların başına açılan müsibətləri.

## VİDADİNİ KƏSMƏYƏ APARDILAR

**Əliyev Hüseyn Sarı oğlu:** Yatmışdım, həyat yoldaşım məni silkələyib durğuzdu və dedi ki, ermənilər kəndə doluşub, camaat qaçır. Dedim ki, sən də qaç, camaata qoşul. Qonşumuz Həsəngilə gəldim. Həsən bayırda idi. Kəndin Stepanakert tərəfindən asfaltı, evləri atəşə tutmuşdular. Həsənlə onların bostanından keçib, məktəbin həyətinə girdik. Ərik ağaclarının altında Həsən qolundan yaralandı. Onun o biri qoluna girib, məktəbin zirzəmisinə tərəf apardım. Amma orda heç kim yox idi. Bilmirdik hara gedək. Ermənilər gəlib bizi tutdu. Əliyeva Şərqiyyəni, qızı Aliməni beş uşaqla, fermada işləyən Yusifi, arvadını, onların da beş uşağını bizimlə bərabər Stepanakertin 9 nömrəli məktəbinə gətirdilər. Sonra arvad-uşaqlardan bizi ayırıb, avtovağzalın yanındakı şəhər milis şöbəsinin qazamatına gətirib saldılar. Qənəhət Hacıyev, Qəyyum Aslanov, Əşrəf Əliyev, Əbülfət Kərimov, Elbrus Abbasov, Şafanın oğlu Vidadi, Qaradağ stansiyasından Əli, Fərraşlı Abbas da burda

idilər. Həsənabadlı «Dovşan» Edikin oğlu bir dəstə erməni ilə gəlib bizi təpikləyir, qaldırıb yerə çırpırdılar. O deyirdi ki, xocalıların hamısını qıracağam, mənim qardaşımı siz öldürmüsünüz.

Vidadi bıçaq axtarırdı ki, özünü öldürsün. Deyirdi ki, mənim başımı sabah kəsəcəklər. Mənə deyirlər ki, Osipin oğlu Tosulu (Armaviri), guya, mən öldürmüşəm. Vidadi bir şüşə tapıb cibinə qoymuşdu ki, lazım gəlsə venasını kəsib, özünü öldürsün. Həsənabadlı Setrakın oğlu Jora gəlib Həsəni harasa apardı. Həsənin qolu hovlayıb şişmişdi. Sonra eşitdik ki, Həsəni buraxıblar. Üç gün keçmişdi ki, gəlib Vidadini apardılar. Dedilər ki, bu gün Tosulun üçüdür, səni onun qəbrinin üstündə kəsmək üçün qəbiristanlığa aparırıq. Vidadi şüşə də cibində getdi...

[15]

## BAKILI 21 NƏFƏR

1992-ci ilin yay aylarında Bakıdan Xocalıya iyirmi bir nəfərdən ibarət könüllü dəstə gəldi. Onların komandiri Aqil Quliyev idi. Ermənilər bu 21 nəfər gələndən sonra daha da vahiməyə düşdülər. Tofiq, [15-16] Baba Nəzərlinin oğlu Hikmət, balaca Elçin, böyük Elçin, İlqar, Cabbar, Vidadi, Cəbrayıl, «vəhşi» ləqəbi ilə tanınan Fikrət, Hafiz, İsmayıl, Azər, həkim Elşən, Məlikağa, «Axund» ləqəbli Mübariz, uzun İsmayıl, Fariz, İlham, Azad, Nizami—hərəsi bir orduya bərabər oğlanlar idi. Azərbaycan deyilən yeddi milyonluq bir məmləkətdən Xocalıya kömək edən bu iyirmi bir nəfər idi. Onlar xocalılarla qaynayıb-qarışmışdı. Tez-tez ətraflara hücum edir, erməni tikililərini darmadağın edirdilər. Bir dəfə Xankəndindən gələn 366-cı alayın üç BTR-ni və sursat dolu maşınlarını ələ keçirdilər. Bundan acıqlanan 366-cı polkun komandiri böyük bir dəstə ilə Xocalı milis şöbəsinə soxuldu və növbədə dayanan üç-dörd milisi tərk-silah edib Yerə uzandırdılar. Aqilin dəstəsi və Xocalı milli batalyonu şöbəni mühasirəyə alıb, 366-cı polkun əsgərlərini də tərk-silah edərək əsir götürdülər. Bəli, təkcə ermənilər yox, 366-cı polk da xocalılardan it kimi qorxurdu. Sonra İcra hakimiyyəti başçısının müavini Göyüş Həsənov BTR-ləri və silahları ruslara qaytardı. Bildirdi ki, Dadaş Rzayevin əmridir. Guya, Dadaş Rzayev deyib ki, onlar bizim Gəncə diviziyasının texnikasıdır. Qaytarılan sursat və BTR-lər ruslar tərəfindən ermənilərə bağışlandı.

Zeynalov Zeynal bu cavanlara atalıq, Zeynalova Şövkət isə analıq edirdi. Onları korluq çəkməyə qoymur, paltarlarını yuyub təmizləyirdilər.

Bir dəfə isə ermənilərin bir ağ «Niva»sı aylardan bəri erməni maşını keçə bilməyən Xocalının içi ilə gəlib keçdi. Bu hamını dilxor etdiyi kimi 21 nəfəri də sarsıtdı.

**Zeynalov Tofiq Zeynal oğlunun dedikləri:--**«Niva» Xocalıdan keçəndən sonra Aqil dilxorçuluqdan bilmirdi nə etsin. Fevralın 23-də gecə mən və beş nəfər bakılı qaz idarəsinə hücum etmək qərarına gəldik. Aqil, İlqar, Cabbar, Cəbrayıl, İlham və mən Həsənabaddakı qaz idarəsini mühasirəyə aldıq. Orda çoxlu erməni «boyeviki» qalırdı. Əvvəl biz atəş açdıq. Ermənilər çölə çıxdıqca atırdıq. Gözətçi erməninin meyidi qüllədən asılı qaldı. Orda 12 erməni qulduru öldürdük. Aqil, Cabbar, İlqar bu döyüşdə yaralandılar. İlqar lap ağır idi. Onun 19 yaşı vardı.

[16-17]

Söz vermişdik ki, bir-birimizin toyunda iştirak edəcəyik. Gətirəndə yolda gülə-gülə «deyəsən, toyumuzu görmədik»,—deyib keçindi. Onun meyidini Bakıya aparmaq üçün üç gün vertolyot gözlədik. Üç aya gəlməyən vertolyot üç günə də gəlmədi. Onu Xocalı qəbiristanlığında dəfn edib, ehsan verdik.

İlqar dəfn olunan günün axşamı erməni və rus birləşmələri Xocalıya hücum etdi. Salamat qalan bakılılar döyüşə-döyüşə camaatı azad etmək istəyirdilər. Aqil və Cabbar yaralı idi. Xocalılardan Əliyar, Zakir, Camal və başqaları Aqili xərəkdə Ağdama doğru gətirirdilər. Naxçıvanikdə Aqil təzədən xərəkdə yaralandı. O yalvarırdı ki, məni qoyub gedin. Ancaq Aqil kimi oğlanı heç kəs qoyub getmək istəmirdi. Dolu kimi yağan güllə altında Aqil də, Aqili gətirənlərdən də həlak olanlar oldu.

Ermənilər həlak olanların cəsədlərini elə günə salmışdılar ki, onlar tanınmaz olmuşdular. Birinin başını kəsib götürmüşdülər. Jurnalist Nadejda İsmayılova Ağdam məscidində başı kəsilmiş meyidi görəndə huşunu itirib yerə yıxıldı. həkimlər onu zorla ayılda bildilər. Bu meyid Hafizin meyidi idi. Elçinlərdən isə birinin ürəyini çıxarmışdılar. Azad, Azər, Məlikağa, Elşən, balaca İsmayıl, Fariz bəri tərəfdə olduqlarından dostlarının köməyinə çata bilməmişdilər. Orda olan on altı nəfərdən on ikisi həlak oldu. Bakılılardan Vidadi, Cabbar, uzun İsmayıl, Nizami Xocalı döyüşündən salamat qurtardı. İndi o igidlərdən sağ qalanlar yenə də döyüşür. Xocalının və şəhid dostlarının qisasını düşməndən alırlar.

## TALEHİN TALE YAZISI

Taleh Quliyev 1966-cı il iyulun 26-da dünyaya gəlmişdi. 1992-ci il fevralın 26-da həyatla vidalaşdı. Təkcə özümü həyatdan getdi? Xeyr! Bu gün Talehin ata ocağı söndü. Özü öldüsə də, ona qədər erməni quldurunu da cəhənnəmə vasil etdi. Taleh ata ocağının qisasını elə bu döyüşdə almışdı. O döyüşürdü, çalışırdı ki, hamını xilas etsin. Ancaq bilmirdi ki, xilasına çalışdığı adamlardan atası Zəkaranı, anası Şuranı, bacısı Zərifəni, böyük bacısı Elmiranın 17 [17-18] yaşlı oğlu Mahiri, onun atasını, qardaşı Əkbəri, Əkbərin 7 yaşlı qızı Sevinci və özünün körpə balası Samirəni də itirəcək. Talehin həyat yoldaşı, Talehin ölümündən sonra dünyaya gəlmiş balaca Zərifənin anası Ramilənin fevralın 26-sı gününü xatırlamalarından:

— Camaat Xocalıdan çıxmaq qərarına kələndə Talehgil hələ də postlarda düşmənin şəhərə girməsini bir az da ləngitməyə çalışırdı. Saat üçə işləmiş o, gəlib bizi tapdı. Qadınların, uşaqların çaydan keçməsinə Valehlə birlikdə köməklik göstərdi. Ağdam tərəfə gəlirdik. Əsgəran—Naxçıvanik yolunun üstünə çatanda ermənilərin bir BTR-i gəldi. Camaat vahimələnərək bir çökəkliyə tökülüşdü. Biz bir müddət bir-birimizi itirsək də, yenidən tapışdıq. O, bizi asfaltın bu üzünə keçirmək istəyəndə atışma başlandı və mən üç yerdən yaralandım. Samiri kürəyimə şələləmişdim. Mənə atılan qüllələrdən biri də onu ölümcül yaraladı. Biz Qaraqayaya tərəf irəliləyirdik. Birdən qayanın üstündə iyirmiyə kimi erməni göründü və əl edib, bizi yanlarına çağırdılar. Bu vaxt Xocalı polis idarəsinin əməkdaşı Əbülfət Əliyev də gəlib bizim yanımıza çıxdı. Burda yüzə kimi arvad-uşaq var idi. Ermənilərin çağırışına əməl etmədikdə onlar bizə atəş açdı. Erməni silahlıları çox, bizimkilər isə iki nəfər idi. Talehlə Əbülfət də onları atəşə tutdu. Talehin patronu qurtardı. O, Əbülfətin avtomatını götürdü. Çünki Əbülfət üç-dörd yerdən ağır yaralanmışdı. Ermənilərin bir neçəsi öldürüldü. Lakin tezliklə Əbülfətin avtomatının da gülləleri qurtardı. Taleh özündəki yeganə qumbaranı atıb, dörd erməni öldürdü. Ermənilərin bizə atdıqları qumbara isə çoxlu arvad-uşağın ölməsinə səbəb oldu. Sağ qalmış silahlı ermənilər bizi mühasirəyə alıb, üstümüzdəki pulları və qızılları aldılar. Talehi isə öldürdüyü ermənilərin qanını almaq üçün güllələdilər. Mən gözlərimi yumub, bu dəhşəti görmək istəmirdim. Onlar məni güclə məcbur edirdilər ki, Talehin faciəsinə baxım. Ermənilər sağ qalanların hamısını maşına yığıb aparmaq istəyirdilər. Son anda Ağdam tərəfdən kələn kömək nəticəsində bir neçə adam qaçıb canını qurtara bildi. Onlardan biri də mən oldum.

[18-19]

## ÖLÜMÜN ASTANASINDA

24 yaşlı Valeh Sahib oğlu Hüseynov 26 gün ermənilərin ölüm kamerasında qalıb. Qohumlarının əksəriyyətini itirmiş bu gəncə 26 gün içərisində ermənilər vəhşicəsinə divan tutmuşdular. həyat yoldaşını, əmisi Zəkaranı, ağsaqqal Allahverdini, əmisi oğlanları Talehi, Əkbəri, əmisi qızı Zərifəni, əmisi arvadı Şuranı, əmisi nəvələri Samiri, Sevinci, Laləni, yaxın qohumlarının çoxunu itirib.

**Valehin dediklərindən:** Fevralın 25-də təxminən axşam saat 11-də şəhər hər tərəfdən tanklardan, BTR-lərdən, pulemyotlardan atəşə tutuldu. Şəhər od tutub yanmağa başladı. Döyüş dostlarıma köməyə getmək istəsəm də, gec idi. Tanklar şəhərə doluşub, qarşısına çıxanı əzib-tapdalayırdı.

Min nəfərə qədər adam çayı keçib meşəyə çıxdıq. Meşə ilə Ağdamın Şelli yolunda mühasirəyə düşdük. Ermənilər bizi gülləyə tutmağa başladılar. Yüzlərlə adam öldü. Əlli nəfərə qədərimiz meşəyə qaçsaq da, mühasirəyə düşdük. həyat yoldaşım Sədaqəti və bir çox başqalarını ermənilər qətlə yetirdi.

Fevralın 26-da məni 14 nəfər əsirlə birlikdə gətirib, Əsgəranda başqa əsirlərə qoşdular. 200-ə qədər Xocalı əsiri elə kökə salınmışdı ki, baxanda çoxunu tanıya bilmədim. hamını lüt soyundurmuşdular. Burda məni də möhkəm döydülər. Dişlərimi vurub saldılar. Dodaqlarım şişib, dilim parçalanmışdı. Ağzımda, burnumda, qulaqlarımda qan laxtalandığından nə danışa bilir, nə də eşidirdim. Gözümün qabağında Xocalı müdafiəçilərindən olan Hüseyn Əzizovu güllələdilər. Bir neçə saatdan sonra əsirlərdən cavanları ayırdılar, ölümə məhkum olduğumuzu bildirib, bizi ayrıca kameraya saldılar. Bir nəfər erməni azərbaycanlılar tərəfdən bir qohumunun öldürüldüyünü bildirib, üç nəfəri götürüb apardı. Səhəri gün məlum oldu ki, onları min əzabla öldürüblər.

Orda bizim əvvəllər nə işlə məşğul olmağımızı ermənilər bilirdilər. Bizi Xocalı sovxozunun anbardarı Arif satmışdı. Çox çəkmədən Arifi azad etdilər.

Mənim gitara çalmağımı, pulemyotum olduğunu, Elxanın «Alazan» atmasını ermənilərə satmışdılar.

[19-20]

**Haşiyə:** Elxan Nəsib oğlu Səfiyev qorxmaz, cəsur bir igid idi. Deмək olar ki, radionu, maqnitofonu, televizoru, maşını, ümumiyyətlə, bütün texnikanı beş barmağı kimi bilirdi. Bir dəfə dörd erməni Daşbulaq kəndi tərəfdən Qaladərəsi qəsəbəsini atəşə tutanda Elxan ov tüfəngi ilə onların qarşısına yerimiş, ermənilərdən birini öldürmüş, birini ölümcül yaralamışdı.

1988-ci ildə Xocalının dərdini Moskvaya bəyan etməyə o da getmişdi. Ümumiyyətlə, ölümdən qorxmurdu, ölümə hazır idi.

Ermənilərdən biri:

— Gitara çalan, düzünü de, sən pulemyotçusan?—deyə soruşdu.

Mən dinmədikdə əlindəki dəyənəklə başıma elə bir zərbə vurdu ki, peçin üstünə yıxıldım. Peçin boruları dağıldı. Bədənimin bir tərəfi pörşələndi. Quduzlar buna əhəmiyyət verməyib, peçi düzəltməyi mənə əmr etdilər. Borular isti olduğundan əynimdəki yeganə köynəyimi çıxarıb, əlimdə tutmaq istədim. İmkan verməyib dedilər ki, əllərinlə düzəlt. Əllərimin yağı axa-axa peçi düzəltdim. Bununla da ürəkləri soyumadı. Bir erməni əllərimi peçə basıb yandırdı. Elxan haqda sorğularına cavab vermədikdə dəmirlə, təpiklə məni huşum itənəcən döydülər. Elə Elxanı da mən günə salmışdılar. Handan-hana ayılanda Elxan pıçıldadı: «Bizi satıblar. Sabah məni öldürəcəklər. Sağ qalsan, məni unutma». Səhəri gün Səlimi, Rasimi, Vidadini aparıb öldürdülər. Ölümə məhkum olanların sıraları seyrəlirdi. Mənimlə Elxanın növbəsinə az qalırdı.

Gərək ki, martın 5-i idi. Günortaya yaxın ermənilər kameramıza gəldilər. Bizi ələ salmağa başladılar. Elxanın gözləri qəzəbdən yanırdı. Bu quldurlardan birinin nəzərlərindən yayınmadı və qəflətən əlindəki bıçağı Elxanın sinəsinə sancdı. Qan ətrafa fışqırdı. Elxansa heç nə olmamış kimi durub baxırdı. Sinəsinə sıxılmış barmaqlarının arasından qan süzülürdü. Ermənilər çıxıb getdilər. Bir az keçmiş Elxanı və üç nəfəri öldürmək üçün gəlib apardılar. Beş nəfər qaldıq. Bir erməni mənə dedi:

— İstəsən, sağ qala bilərsən. 100 min manat tapıb versəniz, səni buraxdıraram. Buraxılan əsirlərdən qohumlarına xəbər elə.

[20-21]

Cavanların hamısını öldürmüşdülər. Məhəmməd kişi və Ələmdar qalmışdı: Məhəmməd kişini də döyüb öldürdülər. Ələmdar kişi isə ölümcül halda dəyişdirildi.

Onlar susuzluqdan ölürdü. Mən razı olurdum ki, məni döysünlər, ancaq onlara su verməyimə icazə versinlər. Beş dəqiqə məni döyəndən sonra su gətirib verməyimə icazə verirdilər. Suyu tam içməyə qoymurdular. Vedrəni vurub əlimdən salır, yenidən döyürdülər. Ağdamlı Allahverdi və Zahid olmasaydı, indi çoxdan məni də öldürmüşdülər. Ömrüm boyu onlara və işlədiyim Xocalı bankının işçilərinə minnətdaram.









## MƏZARSIZ ŞƏHİDLƏRİN ATASI

Ağayev Səttar Muxtar oğlu 1937-ci ildə anadan olub. Xocalı faciəsində on yaşlı oğlu Vüsalı və 29 yaşlı oğlu, Milli Ordunun əsgəri Zahid Ağayevi itirib. 35 gün əsirlikdə qəddar ermənilərin işgəncələrinə məruz qalıb.

**Səttarın dediklərindən:** —Mən ayın 25-də Mehdikənd tərəfdə yerləşən postda idim. Şəhərin hər tərəfində şiddətli atışma gedirdi. Birdən Şakir Orucov bizim posta gəlib bildirdi ki, ermənilər artezian tərəfdən şəhərə doluşub. Bizi mühasirəyə alacaqlar. Sürünə-sürünə atəşdən qurtarıb kəndə girdik. Ailə üzvlərimlə, qonşularla birlikdə Kətik meşəsinə qaçdıq. Ermənilər Ağdama gedən meşə yollarını kəsmişdilər. Bizi atəşə tutdular. On yaşlı oğlum Vüsal yaralandı. Soyuqdan, acından və yaradan ikinci gün öldü. Mən onun meyidinin yanında oturub ağlayırdım. Hərə bir səmtə qaçıb dağılmışdı. İki nəfər erməni qulduru qəlib məni avtomatın qundağı ilə döydü, meyiddən aralayıb, Dəhraz kəndinə apardı. Vüsalın meyidi meşədə qaldı.

Dəhrazda məndən soruşdular ki, Xocalıda nə qədər milli ordu əsgəri və OMON-çu var. Düzünü desən, səni buraxacağıq. Dedim ki, bizdə nə OMON, nə də milli ordu əsgəri var. Cəmi qırx nəfər milisimiz var.

— Sənin familiyanda milli orduda qohumun var, ya yox?

[21-22]

Dedim ki, bizdə milli ordu olsaydı, tezliklə Xocalıya girə bilərdinizmi?

Sonra onlar mənə üç ədəd qumbara, Xocalıda oğlumun rəhbərlik etdiyi vzvodun siyahısını və oğlum Zahidin pasportunu göstərib, məni təpikləyə-təpikləyə apardılar və bir meyid göstərdilər. Üzündəki örtüyü açıb—bu kimdir? —dedilər.

29 yaşlı oğlum Zahidin meyidini görəndə başıma döyüb, meyidin üstünə yıxıldım. Ermənilər həm məni, həm də oğlumun meyidini təpikləməyə başladılar. Sonra məni də burdakı əsirlərlə birlikdə Xankəndinə gətirdilər. Bizi Xocalıda düşürüb, yolda möhkəm əzişdirdilər. Xankəndində dişlərimi çəkdilər. hamımızı dəmirlə huşumuz itənə qədər döydülər. Günlərlə nə su, nə də çörək verirdilər. Şaxta olduğundan ayaqlarımın əti və dırnaqlarım qopub düşdü. Ayaqlarımın sümüyü qalmışdı. 35 gün olmazın işgəncə verəndən sonra məni dəyişdirdilər.

... Bəli, indi Səttar kişi hələ də ağrıların giziltisini hiss edir. Onu ən çox incidən məzarsız qoşa şəhid oğlu, bir də dağlı Xocalı yarasıdır.

## BEŞ AY ƏSİRLİKDƏ

Kamil Dadaş oğlu Hüseynov 1953-cü ildə anadan olub. Xocalı faciəsində həyat yoldaşı Məlahət ayağından yaralanıb, yeddi yaşlı qızı Maral Hüseynova, 22 yaşlı qardaşı qızı Rəsmiyyə Hüseynova, 17 yaşlı qardaşı oğlu Emin Hüseynov vəhşicəsinə qətlə yetirilib. Onlarla qohumunu itirmiş bu gənc düz beş ay girov saxlanılıb.

Kamil də fevralın 25-də başqa həmyerliləri kimi postda olub. Şəhərin atəşə tutulmasını həmişə gördüyündən bu dəfə də dəhşətə düşməyib. Ancaq rus tanklarının və BTR-lərinin vahiməli hücumu onları da postdan çıxmağa məcbur edib. Evlərində ailəsini tapmayan Kamil camaata qoşulub Kətik dağına çıxır. Orda da ailə üzvlərindən bir xəbər bilməyib yenidən Xocalıya qayıdır. Ermənilərin kənddə qətlə yetirdiyi Mətanətin meyidini aparıb, bir evə qoymağa kömək edir. Yenidən bir neçə nəfərlə Kətik meşəsinə tərəf yönəlir, bu vəhşilikdən qurtulmağa çalışır.

[22-23]

**Kamilin dediklərindən:** —Səhərə yaxın meşədə Hümbət kişinin ailəsi ilə, milli ordunun əsgəri Tofiq Hüseynovun atası Mirsiyabla, anası Minəşlə, qardaşı Bakirlə, milli ordunun əsgərlərindən Zülfünün və Əlövsətin ailələri ilə tapışdım. Meşə ilə gəlib, Şelli kəndinə keçmək istəyəndə ermənilər qarşımızı kəsib bizi atəşə tutdular. Hümbət kişinin 18 yaşlı oğlu Eldar ordaca öldürüldü. Ermənilər çox idilər. hamısı da avtomat və pulemyotlarla silahlanmışdı. Bizdə cəmi iki dənə avtomat vardı. Biz məcbur olub Qarqar çayına endik. Minəş, Mirsiyab, Bəkir başqa səmtə getdilər. Çayda 150-yə qədər adam vardı. Ermənilər onları da geri qayıtmağa atəşlə məcbur etdilər.

Fevralın 26-da gecə saat 10-11 radələrində meşə ilə Abdal-Gülablı tərəfə yol aldıq. Ancaq camaatda, əsasən də, qocalarda, qadınlarda və uşaqlarda taqət qalmamışdı. Vahimə, soyuq, aclıq, yorğunluq hamını əldən salmışdı. Şərqiyyə Usubova və lal əsgər gözlərimin qarşısında keçindilər. Rəşid Kərimov şikəst olduğundan erməni kəndi Dəhrazın yaxınlığında qaldıq. Səhər açılanda ermənilər yaşayan Dəhraz kəndinə çıxdıq, erməni səsi eşidəndə geri qayıtmaq istəsək də, bir şey çıxmadı. Ermənilər bizi mühasirəyə almışdılar. Onlar bizi atəşə tutdular. Biz də onlara atəş açdıq. Burda Zəhra Salahova, institut tələbəsi, milli ordunun əsgəri Mehdi Kərəmoğlu, Astan kişinin oğlu Nadir öldü. Rövşən və bir neçə mesxeti türkü yaralandı. Arvad-

uşaqlar qışqırdı ki, bizi qırmayın. Ermənilər səngərdə olduqlarından bizim qüllələr boşa çıxırdı. Nəhayət, bizi əsir aldılar. Üst-başımızı gəzib, Dəhraz kəndinə apardılar. İki gün Dəhrazda saxlayandan sonra cavanlarımızdan 12 nəfəri ayırıb apardılar və dedilər ki, sizinkilər bizdən bir madar oğlanı öldürüb, ona görə bunları öldürəcəyik. Onları bizdən 40-50 metr aralı bir dərəyə apardılar. Avtomatlardan atəş səsləri gəldi. Ancaq-uşaqları öldürüb-öldürmədiklərini görə bilmədik. Onlar aşağıdakılar idi: Usubəli Qarayev, Zakir Usubov, Əliyar, Elşad qardaşları, Səyavuş Usubov, Tofiq Zeynalov, Şahin Məmişov, Vüqar Hüseynov, [23-24] Rövşən Həsənov, Elşən Bağırov, Ələddin Paşayev, Ülfət Əliyev.

Fevralın 29-da on doqquz nəfərimizi «Kamaz» maşınına yığıb Stepanakertə apardılar. Xocalıda maşından düşürüb, bizi möhkəm döydülər. Sonra yenidən maşına yığıb, Stepanakertdəki dustaqxanaya aparıb saldılar. Bizə bir həftə nə su, nə də çörək verdilər. Bizi gündüzlər nəzarətçilər, gecələr isə şəhər quduzları döyürdü. On gündən sonra Qırmızı Xaç Cəmiyyətindən adam gəldi. Bizə bildirdilər ki, sizi döydüyümüzü, ac saxladığımızı bildirsəniz, onlar gedəndən sonra sizi güllələyəcəyik. Dedilər ki, deyin bizə gündə 500 qram çörək, yatanda yorğan-deşək verirlər. Əlacsız qalıb, dediklərinə əməl etməli olduq. Nümayəndələr gedəndən sonra üç-dörd adama bir parç su, adambaşına gündə 40-50 qram çörək verirdilər. Mənimlə bir kamerada yatan Qaradağlı Ələstan kişi acından və susuzluqdan öldü. Bizimlə qalan əsirlərdən sağ qalanları bir aydan sonra dəyişdirildi. Məni və Yusifi Yerevana, ordan da Gorusa apardılar. Beş aylıq işgəncədən sonra bizi dəyişdilər...

## ÖLÜM ƏL ÇƏKMİRDİ

**Hətəmova Nazilə hilal qızı, 39 yaşında, II qrup əlil:** Naxçıvanik altında yaralandım. Yanımda çoxlu ölən vardı. 9 yaşlı Xatirənin anası yanımda öldü. O, yaralıykən paltosunu çıxardı, 13 yaşlı oğlu Raminə verib yalvardı ki, barı heç olmasa, sən salamat qal, camaata qoşul get. Balaca Xatirə ayağa qalxıb "Ay Nazilə xala, mamama kömək elə!" deyəndə onu da vurdular. Xatirə də paltosunu çıxarıb, özündən kiçik bacısı Xəyaləyə geyindirmişdi. Ermənilər meyidlərə yaxınlaşıb qızıllarını, pullarını soyurdular. Mən Raminə və Xəyaləyə dedim ki, uzanıb, özünüzü ölülüyə vurun. Qoy erməni elə bilsin ki, ölmüşük. Sonra atışma başladı. Ermənilər «türkeri kama»,—deyib qaçışdılar. Milli ordumuzun əsgərləri gələndə biz qorxumuzdan başımızı qaldırmırdıq. Qorxurduq ki, ermənilər olar. Azərbaycanca danışıqlarını eşidəndə köməyə çağırdıq. Bizi qucaqlarına alıb, xeyli aralıda dayanan maşınlara tərəf apardılar. Ağdama göndərmək üçün məni və başqa iki nəfər yaralı kişini bir «Niva» maşınına qoydular. Maşın iki-üç metr getməmişdi ki, minaya düşdü. Maşındakı yaralının biri öldü. [24-25]
O birisinin isə xəstəxanada qıçını kəsdilər. Məni Xocalı sakini Əliyev Yaqub Sarı oğlu «Niva»dan çıxarıb başqa maşında Ağdam xəstəxanasına gətirdi. Burda da ermənilərin Ağdama atdıqları «kristal» raketi yatdığım palatanın pəncərəsinin qarşısına düşdü. Otaqdakı əşyalar, şüşələr çilik-çilik oldu. Muxtar həkim məni pəncərədən çıxarıb hərbi qospitala apardı.

## ÖLMƏK İSTƏSƏK DƏ...

**Kərimova Elmira Şahmalı qızı, 35 yaşında:**— Atışma başlayanda fabrikin yanındakı Vəlinin evinə girmişdik. Gecə saat 1-də Azadın təkidi ilə burdan çıxdıq. Çayı keçib, meşəyə gedəndə Elman müəllimə rast gəldik. Dedi ki, səs salmayın, gedənlərin arxasınca gedin. Səhərə yaxın Naxçıvanik yoluna çatanda qarşımızdan bir «Vilis» keçdi. Biz aşağı yatıb kolların arasında gizləndik. Bir ədəd tank, 2 ədəd BTR qəlib yolu kəsdi. Sonra «Vilis» də onların yanına gəldi. «Vilis»dən və BTR-lərdən tökülüşüb bizi atəşə tutdular. Salman kişinin oğlu Rasifi vurdular. Anası Tamaşa arvad qışqırdı:

— Vasif qardaşını öldürdülər, ket közlərini sığa!

Vasiflə həyat yoldaşım Yalçın gedib Rasifin gözlərini sığadılar. Vasif qardaşının avtomatını götürüb Yalçına verdi. Sonra anası Tamaşaya bir qumbara verdi və ələ keçəsi olsaq, özümüzü məhv etmək üçün necə partladacağını öyrətdi. Vasiflə Yalçın üst tərəfdə atışırdılar. Artıq patronları qurtarmışdı. Həsənin arvadı milliyyətcə erməni olan Rita, qızı Laura və Asya da bizimlə idilər. Ermənilər bizə |yaxınlaşanda qadınlar, hamımız Tamaşa arvadın başına toplaşdıq. O, qumbaranı sahmanlayıb, partlatmaq istəyəndə Laura qumbaranı onun əlindən vurub saldı. Ermənilər bizi əsir aldılar. Asya göz-qaşla qardaşım İntiqamı ermənilərə nişan verdi. Qardaşımı elə ordaca ayırıb apardılar. Bizi isə, bacım Züleyxanı, məni, qonşumuz Züleyxa xalanı, Yeganəni, Tamaşa arvadı, Ritanı, Lauranı, Asyanı, Vasifi, Yalçını, Əsgəran milis şöbəsinin dustaqxanasına gətirdilər. Asya və Lauranı bizdən ayırdılar. Sonra qəlib Vasifi və [25-26] Yalçını apardılar (Bir ilə yaxın keçməsinə baxmayaraq, İntiqamdan, Yalçından, Vasifdən bir xəbər yoxdur).

Quldurlar qızıllarımızı, pullarımızı, aldılar. Cavan, közəl qızları seçib, aparmaq istəyəndə onların ayaqlarına yıxılıb yalvarmağa başladıq, lakin qadınları təpiklə vurub, ağzının-burnunun qanını bir-birinə qatdılar. 19 yaşlı Yegananın ələ keçməməsi üçün üstündə oturub üç gün gizlətdik. Sonra bizi dəyişəndə Züleyxa xala Yegananın qucağına bir uşaq verib ermənilərə dedi:

— Bu, mənim ölən oğlum Yaşanın yoldaşıdır.

## XOCALININ SON DÖYÜŞÜ

**Əzizov Əli Əzim oğlu, 1951-ci il:** — Son günlər camaat bir-birinə daha çox isinişmişdi. Qonum-qonşu sanki ölümün yaxınlaşdığını hiss edib bir yerə toplaşırdı. Bir dəfə atışma olarkən bizim qarajda çoxlu adam vardı. Onları yeznəmiz İldırım məktəbin zirzəmisinə apardı. Atam qoca və gözü görmədiyi üçün evdə qaldı. Mən posta getdim. Milli ordumuz yerləşən klub tərəfdən atəş səsləri daha möhkəm eşidilirdi. Qaladərəsi məhləsindəki türk evləri büsbütün yanırdı. Milli ordunun əsgəri Razmiklə kluba tərəf getdik. heç kəs yox idi. Ermənilər avtomatla klubun pəncərəsini atəşə tutub qışqırırdılar. İki nəfər qaraltı gördük. Onlar deyəsən, azərbaycanlı idi. Atışırdılar. Mənim silahım olmadığı üçün söyüd ağacının arxasına girmişdim. Razmik Məmmədov ermənilərə tərəf atəş açdı. Ermənilər atəş gələn səmti külləbaran etdilər. Razmik böyründən yaralandı. İsti-isti özü yeriyə bilirdi. Kömək edib İbrahimkilə gətirdik. Evdə öldü.

Çınqıl postundan da Ələsgər müəllim, Şahin, Mirzə, Ziyadxan, Şahid, Hümbət, Elmin, Mətləb atışırdılar. BTR və BMP-lərdən atəşə tutulandan sonra postu buraxmaqdan başqa bir çarə olmadı. Çökək məhlənin adamları Yelmar Əbdülovun zirzəmisinə yığışmışdılar. Gəlib, onları da xəbərdar edərək Hilis çayı aşağı, beşmərtəbəyə gəldik. Ermənilər çaylağı da atəşə tutmuşdular. Baxış Şirinov, İbrahim Əzizov beşmərtəbəyə gəldilər. Milli ordunun komandiri Tofiq Hüseynovun içi patronla dolu «UAZ» maşını da [26-27] beşmərtəbənin qarşısında idi. Yanında adam yox idi. Əvvəl meşəyə tərəf getmək istədik. Ancaq benzindoldurma məntəqəsi, həm də fabrik tərəf ermənilərlə dolu idi. Qayıdıb qapını qıraraq beşmərtəbəyə girdik. Üç nəfər silahlı beşinci mərtəbəyə qalxdılar. «UAZ» maşınındakı patronların hamısını daşıyıb, beşinci mərtəbəyə yığdıq. Səhər saat 7-i olardı. Ermənilər evlərə soxulub qarət edirdilər. Uşaqların ürəyi buna tab gətirmədi, erməniləri atəşə tutdular. Elə bu zaman BMP-lər, BTR-lər hər tərəfdən atəşi beşmərtəbəyə yağdırdılar. Abışov Elşad Qiyas oğlu beşmərtəbənin üstündə həlak oldu. Vəzir Abışov isə yaralandı.

Ətrafda taxtadan tikilmiş ikimərtəbəli şəhər Sovetinin binası, şofer Telmanın, Vidadi Cavadovun, Bəhmən kişinin evlərinin alovu ərşə qalxmışdı. Sonra əhənglə ağardılmış dörd BTR kənddən qəlib magistral asfalta çıxdı. Onlardan biri Əsgərana, üçü isə Stepanakertə tərəf getdi. Saat on radələrində Noraguğ tərəfdən dörd-beş «UAZ» markalı təcili yardım maşınları kəndin arası ilə hərlənir, ölmüş və yaralı erməniləri yığıb aparırdı. Döyüş yalnız beşmərtəbə ətrafında gedirdi. O biri tərəflərdə ermənilər evlərin əşyalarını yük maşınlarına yükləyirdilər.

İsmətli qızlardan biri olan Qətibə Mirsiyab qızı Həsənovanı zorla İcra başçısının «Niva» maşınına basıb apardılar. Vahiməyə düşmüş qocalar, uşaqlar təslim olmağımızı təklif etdi. Xocalı milis şöbəsinin əməkdaşı Şahid Muradov bildirdi ki, təslim olmaq istəyəni özüm güllələyəcəm. Son damla qanımıza qədər vuruşacağıq. Mehman Əzizovun, Hümbət Cəfərovun, Şahid Muradovun, Mətləb Muradovun, Bəbir Abışovun, İlham Abışovun, Elmin Əzizovun, Ədalət Əzizovun, İbrahim Əzizovun və bir çox başqalarının mühasirədə olmaları heç veclərinə də deyildi. Ətrafda otuza yaxın erməni meyidi qaralırdı. Mehmanın vurduğu ermənin biri qarşıdakı evin balkonundan asılı qalmışdı. Birini toyuq tutarkən vurub aşırdılar.

Tutulan Xocalı girovlarını Sevindik Paşayevin və Məhəddin Nəbiyevin evlərinə aparırdılar. Ermənilər o evləri qərargah etmişdilər. Çayçı Qarsalanı [27-28] qarşıdakı evdən çıxıb qaçanda vurub öldürdülər. Arvadını isə özündən əvvəl öldürmüşdülər.

Artıq axşam düşürdü. Şəhərin Dərələgəz adlanan hissəsindəki köhnə dəmir yolu ilə 30-40 nəfər silahlı erməni gəldiyini görüb, Şahidə göstərdim. Patronumuz da tükənirdi. Şahid bir neçə avtomatlı ilə pəncərədən bayıra çıxıb ətrafı yoxladı. Bu həndəvərdə olan erməniləri təmizləmişdik. Sonra avtomatçıların əhatəsində camaatı «86-cı km» istiqamətinə apardıq. Əsgərana yaxın Mirzəcanın üst tərəfindən meşəyə keçdik. Artıq qaranlıq idi. Qar yağırdı. Xocalıda atəş səsi eşidilmirdi. Xocalı xocalılarsız qalmışdı. Biz meşədə olanda bir BTR asfaltı keçdiyimiz səmtdə dayanıb işığını meşəyə saldı. Sonra gedib, Əsgəran qalasının yanındakı erməni postunda dayandı. Biz Ağdama tərəf hərəkət etdik. Yolda atam Əzimin, Mədinə arvadın ürəyi dayandı. Adilə arvad, Seydi yerlərindən tərpənə bilmədilər.

Naxçıvanikin yanında mühasirəyə düşdük. Ermənilər bizə təslim olmağı təklif etdilər. Biz təslim olmaq istəmirdik. Xocalı şəhər Sovetinin katibi Şöhrət Usubov qətlə yetirildi. Şöhrətin timsalında Xocalının canlı arxivini itirdik. Bu atışmadan sonra pərən-pərən düşdük. Mən azıb Əsgərana, ordan isə çay aşağı güllə yağışı

altında sürünə-sürünə Ağdam tərəfə gəldim. Milli Ordunun əsgərləri köməyimə çatmasaydı, çətin ki, Ağdama çataydım. Yolda Natiqin yaralanmış qardaşı İsmayılı sürüyə-sürüyə ermənilərlə atışmasını da gördüm.

## NƏZİR PULU

**Cavadov Nazim Əli oğlu, 17 yaşında:**—Fevralın 25-də saat 2 radələrində kənd atəşə tutulanda bizim zirzəmidə xeyli adam var idi. Ermənilər gəlib hamımızı bayıra çıxartdı. Bayırda üç nəfərin meyidi görünürdü. Yəqin ki, atam Əlinin, dayım Şiraslanın, Talış kişinin meyidləri idi. «Kamaz» sürücüsü Vaqifi də qapılarında öldürmüşdülər. İki erməni arvad-uşaqları buraxıb, bizi Zöhrabın evinin arxasına gətirdi. Biri dedi ki, gedin pul gətirin, sizi buraxaq. Dayım oğlu Fazil gedib, evlərindəki nəzir torbasında olan 50-60 manat pulu gətirdi. Erməni pulları [28-29] ovcuna tökəndə yerə qəpik düşdü. Qəpiyi yenicə götürmüşdü ki, bir nəfər erməncə söyə-söyə atəş açdı. Güllə pulları götürən ermənin kürəyinə dəydi. O, yerə yıxılanda o biri erməni bizə dedi ki, çıxıb gedin. Aşağı evlərə gəldik. Hüsü ilə Abbasqulu da orda idi. Ordan meşəyə keçib, Naxçıvanik istiqamətində gedən adamlara qoşulduq. Naxçıvanikə gedən yolda bizi gülləyə tutdular. Ermənilərin buraxdıqları arvad-uşaqların çoxu burda öldü.

## MƏNİM XİLASKARIM

**Sadıqov Arif Sarı oğlu, 51 yaşında:**— Saat 8-də ailəmlə taksi sürücüsü Məmmədgilə gəldim. Orda başqa adamlar da vardı. Saat 11-də Vəkil Ələkbərov, İslam Əliyev, Minəş Əliyeva kənd aşağı gəlirdilər. Minəş dedi ki, ermənilər kəndə doluşub. Qırdıqlarını qırır, sağ qalanlarını isə qabaqlarına qatıb aparırlar. Onlarla birlikdə orta məktəbin zirzəmisinə gəldik. Orda heç kəs olmadığını görüb, çay aşağı gəlib, çayı keçdik. Silahlılar xəbər gətirdi ki, köhnə Kətik kəndində ermənilərin postu var. İstiqaməti dəyişib dik yuxarı qalxdıq. Xocalı aeroportunun komendantı Əlif hacıyev xeyli adamla burda idi. O, bildirdi ki, koridor yaratmaq lazımdır. Camaat koridorla Naxçıvanik yoluna qədər gəldi. Birdən Əsgəran tərəfə sarı bir «UAZ» keçdi. Əlifin əmrilə koridor bir az da genişləndirildi. 200-300 metr getmişdik ki, hər iki tərəfdən bizi atəşə tutdular. Bu Naxçıvanik fermasının üst tərəfində idi. Burda İslam Əbdüləli oğlu Əliyev öldü. Çoxlu yaralananlar oldu. Mən beş yerimdən — hər iki budumdan, sinəmdən, əlimdən yaralandım. Yoldaşım Rəfiqəyə dedim ki, qaç, ələ keçərsən. O, məni qoyub getmək istəmirdi. Qabaqda Taleh Abbasovun başından yaralandığını gördüm. İki yaşında oğlu da yanında idi. Məni görəndə:

— Arif dayı, qurban olum, mənim balamı da özünlə apar, qoyma qalsın, — dedi.

Salamat əlimlə uşağın kürəyindən yapışdım. Taleh o dəqiqə keçindi. Uşaqla yüz metr gəlmişdim ki, taqətdən düşüb yıxıldım. Yanımdan xeyli adam keçirdi. Kim olduğunu bilmirdim. Yalvardım ki, siz allah, bu Talehin uşağını da aparın. Özü öldü. Yalvarıb [29-30] mənə tapşırdı. Uşağı kim isə götürüb getdi. On-on beş metr dizin-dizin sürünüb yıxıldım. Daha bir metr də olsun sürünməyə taqətim qalmamışdı. Bir saata kimi bu vəziyyətdə qaldım. Birdən kimsə məni qaldırıb, qoluma girdi və ağlamağa başladı. Milli ordu formasında olan bu oğlanı tanımadım. O, mənim yeriyə bilmədiyimi görüb, məni dalına aldı. İki kilometrə qədər gətirib, Şelli fermasının yanında maşına qoydu və yenidən meşəyə qayıtdı. Sonradan öyrəndim ki, mənim xilaskarım Xocalı milis şöbəsinin əməkdaşı Yurin Məhəmməd oğlu Məmmədov imiş.

Nə qədər ki, yaşayıram, Yurinin hesabına yaşayıram.

**Haşiyə:** Yurin Məmmədov Fərrux döyüşündə başından ağır yaralanmışdı. İndi o, Bakı şəhərində Əhmədli qəsəbəsindəki xəstəxanada müalicə olunur.

## ONLAR AYRI DÜŞÜBLƏR

Rəhim Kərimov ilə Almara Kərimova birlikdə 20 il ömür sürmüşlər. Ermənilərin kəndi yandırdıqlarını görüb, camaatla birlikdə bu vəhşilikdən qurtarmağa can atıblar. Onlar meşədə Malik İmaninin ağır yaralanmasının, həyat yoldaşının onu qoyub getməməsinin şahidi olublar. Dəfələrlə rastlaşdıqları güllə yağışı onları meşənin başqa-başqa səmtinə salıb.

**Rəhimin dediklərindən:** Möhkəm qar yağmışdı. Yerimək çətin olduğundan ayaqqabılarımızı çıxarıb ayaqyalın gedirdik. Mən, Xasay Xəlilov, Heyran, Kifayət və oğlu Mübariz, Əzim, Füzuli bir yerdə idik. Xasayda avtomat, Füzulidə beşatılan vardı. Zirvədəki atışmada Xasay iki erməni öldürdü. Özü isə budundan

yaralandı. O, yarasına qar doldurdu. Bu, qanın axmasını bir az ləngidirdi. Atışmadan sonra başqa səmtə üz tutduq. Xasay hələlik özü gedə bilirdi. Mən həm Heyranın əlindən tutur, həm də Xasayın patron dolu torbasını aparırdım. Artıq üç gün idi ki ac, yuxusuz meşədə atəşdən o tərəf-bu tərəfə qaçırdıq. Yolda Heyran yıxıldı, yeriməyə taqəti olmadı. Yüz metr getməmiş Xasay da uzandı və bildirdi ki, məni gözləməyin, siz gedin. Kifayətin çılpaq ayaqları qıpqırmızı olmuşdu. Kifayət də oturub getməyəcəyini bildirdi. On yaşlı oğlu Mübariz də yanında qaldı. Biz bir az [30-31] getmişdik ki, Mübariz gəlib, bizə çatdı və bildirdi ki, anam gələ bilmədi. Amma Xasay dayı durub yavaş-yavaş gəlirdi. Beləliklə, Heyran, Heyranın həyat yoldaşı Firdovsi və Kifayət meşədə qaldılar. Biz gəlib bir posta çatdıq. Orda azərbaycanca danışırdılar. Əvvəl elə zənn etdik ki, ermənilərdir, qəsdən belə edirlər ki, bizi tutsunlar. Sonradan onların Şelli uşaqları olduqlarını yəqin edib, onları köməyə çağırdıq. Bizi xəstəxanaya çatdırdılar. Bərdə rayon xəstəxanasının cərrahı Xasay həkim onlarla adamı həyata qaytardı.

**Almaranın dediklərindən:** —Ermənilər bizi zirvədə atəşə tutanda hamı pərən-pərən düşdü. Mən yerimdən tərpənə bilmədim, yerə uzandım. Boylanıb ətrafa baxanda gördüm yanda bir şey qaralır. Qonşumuz Hüseynağa idi. Dedim:

— Dur gedək, ermənilər gəlib bizi tutacaqlar. Dedi:

— Almara xala, vallah ölürəm, tərpənən deyiləm, elə burdaca yatacağam.

O, yoldan bir üçatılan tapmışdı. Patronu da yox idi. Uzanıb yatdı. Mən isə onun yanında oturdum. Birdən iki nəfər silahlı adam gördüm. Hüseynağanı tərpətdim, durmadı. Bizi atəşə tutdular. Güllələr ətrafımıza səpələndi, ancaq bizə dəymirdi. Onlar yaxınlaşıb Hüseynağanı təpiyin altına saldılar, avtomatın qundağı ilə belinə, başına döyəndə mən yaylığımı açıb, ermənilərin ayaqlarına dolayıb dedim:

— Sizə qurban olum, hamımızı qırıblar, ikimiz qalmışıq! O, mənim oğlumdur, öldürməyin onu!

Bizi Pircamala gətirib tövləyə saldılar. Burda çoxlu həmkəndlimiz vardı. İsmayıl adını düz demədi. Onu möhkəm döydülər. İsmayılı və başqa üç nəfər cavan oğlanı çıxarıb apardılar. Bildirdilər ki, Milli Ordu əsgəri olduqları üçün güllələməyə aparırlar. Onları aparandan sonra çöldə çoxlu atəş səsi eşidildi. Canan Orucovu apardılar ki, gəl meyidləri maşına yığ. Canan gələndə bildirdi ki, maşına fermada batdağa batmış dörd meyid yığdım. Meyidlər elə günə salınmışdı ki, kimlər olduğunu tanıya bilmədim.

Sonra Cananı meşəyə apardılar. Orda ona yer qazdırıb iki meyid basdırtdılar. Ermənilər adamları [31-32] harda öldürdüklərini bizə deyirdilər. Həsənin qızı Qızılgül də orda idi. Dedi ki atam Həsən, anam Qaraqız və bacım erməni qəbiristanlığının yanında donub öldülər.

Sonra bir erməni gəldi, əlindəki qumbaranı partlatmaq istədi. O bildirdi ki, mənim bir qardaşımı öldürmüsünüz, dörd balası yetim qalıb. Başqa ermənilər imkan vermədi. O, avtomatın bütün güllələrini başımızın üstündən yuxarı boşaltdı, başını divara vurdu. Onu aparıb sakitləşdirdilər. Bütün kişiləri çıxarıb döydülər. Sonra hamımızı maşına mindirib Əsgərana gətirdilər. Asfaltda bütün kişiləri ağacla döyürdülər. Kişiləri Əsgərana apardılar, biz altı nəfər qadını—məni, Südabəni, Gülayanı, Narxanımı, Bəstəni, Səriyyəni gətirib, Qarağacı qəbiristanlığının yanında buraxdılar.

## QIRĞINDAN KEÇƏN UŞAQ

**Usubov Xəyyam Şahin oğlu, 9 yaşında:** —Biz saat 11-də babamgilin qarajına girdik. Bakıdan gəlmiş Milli Ordu komandiri babamgildə yaralı yatırdı. O, üç gün əvvəl qaz kontoru yaxınlığındakı vuruşmada yaralanmışdı. Saat ikinin yarısına qədər qarajda qaldıq. Atışma kəsmədiyini görüb, kənddən çıxdıq. Kəndi yandırdılar. Anam soyunub, bizi çaydan keçirtdi. Çayı keçəndən sonra babamgili itirdik. Yolun yarısına kimi Milli Ordunun əsgərləri ilə gəldik. Naxçıvanik yolunu keçəndə Kərim babanın nəvəsi Füzuli bizə çox kömək etdi. Burda Əsgərana tərəf bir «UAZ» keçdi. Füzuli qumbaranı atıb onu partlatdı. Sonra atışma düşdü. Saday dayı, Teymur dayı yaralandı. Çiçək isə təpənin üstündə öldü. Anam Zərifə ayağından yaralandı. Biz uzanıb sürünürdük. hər tərəf meyidlə dolu idi. Mən qorxudan onlara baxa bilmirdim. Çox əzabla gəlib Şelliyə çatdıq. Ancaq hələ də üç əmimdən — Zakirdən, Əliyardan, Elşaddan xəbər yoxdur...

## GÜLABLI DAĞLARINDA

**Quliyev Mürsəl Xankişi oğul:**— Saat 11-də kənd bütün müasir silahlardan atəşə tutulmuşdu. [32-33] Təkcə Məhsəti türklərinin yaşadığı məhəllə yox, həm də ortalarda evlər yanmağa başladı.

Biz aşağı poçtun qarşısına gəldik. Burda çoxlu adam vardı. Telefonçu Gülşənin səsi Ağdamdan, Şuşadan kömək istəyirdi. Ancaq bu yalvarışlara, deyəsən, fikir verən yox idi. Naəlac qalaraq çayı paltar-palazlı

keçib, meşəyə üz qoyduq. hansı kəndə tərəf gedirdiksə, atəşlə qarşılanırdıq. Dəstəmizdə cəsur silahlı oğlanlar vardı. Qurban Pənahov, Hüseyn Quliyev, Məhəmmədəli Rzaquliyev, Nicat Məmmədovun atıcılığı bizə çox kömək etdi. Ancaq ölənlər, yaralananlar çox idi. Əmim Əliş, Musəvi, qardaşım Mərkəz ağır yaralandı, türk Abdulla öldürüldü. Atışma bərkidikcə camaat pərən-pərən düşürdü. Minə yaxın adamdan 15-20 nəfərimiz Gülablı səmtə çata bildik. Gülablı yaxınlığında daşlarda yazılmış ermənicə yazılar bizi bir daha karıxdırıb ermənilər tərəfə apardı. Atəş ara vermədiyi üçün yenidən dərəyə düşdük. Bizi Gülablı uşaqları qarşıladı. Camaatı maşınlara yığıb Ağdama yola saldılar. Onlar yaralanıb meşədə qalmış qardaşım Mərkəzi, Musəvini və başqa yaralıları da atəş altından çıxarıb gətirdilər. Gülablı uşaqları, bibim oğlu Elman olmasaydılar, Mərkəz, Musəvi və başqaları meşədə qalıb tələf olacaqdılar.

## QARŞIMIZI MEYİDLƏR KƏSMİŞDİ

**Mustafayeva Bənövşə İbrahim qızı, 38 yaşında:**— Atəş səsləri gələndə sevindik. Elə bildik bizimkilər Əsgəranı alırlar. Axı, Tamerlan Qarayev Elman müəllimə demişdi ki, sabah çayımızı Xocalıda içəcəyik. Sonra kəndin atəşə tutulduğunu görəndə camaat Kətik meşəsinə tərəf axışdı. Biz də onlara qoşulduq. Səhərə yaxın Naxçıvanik yolunu keçərkən qarşımızdan bir sarı «UAZ» keçdi və bizi atəşə tutdular. Oğlum Vaqifi düz asfaltın ortasında vurdular. Ərim Rza böyük qızımın əlindən tutub gedirdi. O, Vaqifin vurulduğunu görmədiyindən onu axtarırdı. Mən qucağımdakı uşaqla dərəyə endim. Rza ilə böyük qızım qayanın üstündə qaldılar. Rzanı da vurdular. O, qızımızın qucağında canını tapşırdı.

Hər tərəfdən avtomat, pulemyot, BTR, BMP qüllələri [33-34] yağırdı. Dərədə arvad-uşaq çox idi. Beş nəfər silahlı vardı. Aşağı endik. Bir az gedib yuxarı tərəfə çıxmaq istədikdə dərənin qabağında yüzdən artıq meyid gördük. Meyidlərin üstündən keçmək mümkün olmadığından yenə aşağı gəldik. Burda qayanın üstündə 20-yə qədər erməni qarşımızı kəsdi. Bizə təslim olmağı əmr etdilər. Bizim silahlılar onlara atəş açdı. Ermənilərdən biri öldü, biri isə ağır yaralandı. Onlardan bir neçəsi öləni və yaralını apardılar. Sonra Taleh Quliyev ermənilərə qumbara atdı. Ermənilər söyə-söyə bizi atəşə tuturdular. Onlar da bizə tərəf bir qumbara atdılar. Çoxlu adam öldü və yaralandı. Silahlılardan üçü öldü. Əbülfət Əliyev ağır yaralandı. Müşfiq, Müşfiqin anası, əmisi Möhübbət, başqa iki nəfər, qucağında uşaq olan bir kişi və başqaları ölmüşdü. Xumar Səlimova, mən, qucağımdakı uşaq, fermada işləyən Təvəkkülün özü və qucağındakı uşaq ağır yaralanmışdı. Təvəkkülün uşağının bir qıçını güllə aparmışdı. Erməninin biri — Slavik qayadan tullanıb yanımıza düşdü. Talehin yaxasından yapışıb qışqırdı: «Səni öz avtomatınla atacağam. Mənim nəslimi kəsmisiniz. Dünən «Kristal»dan qardaşım qızı ölüb. İndi qardaşımın birini öldürüb, o birini ölümcül yaralamısınız».

O, Talehin avtomatını əlindən alıb, atmaq istədikdə avtomat açılmadı. Çünki patronu qurtarmışdı. Erməni öz avtomatı ilə Talehi güllələdi. Arvadlı-kişili hamımızın üst-başını gəzir, qızıl və pullarımızı yığırdılar. Qadınlardan birinin üzüyü barmağından çıxmırdı. Erməni qəməsini çıxarıb onun barmağını kəsdi, üzüyü barmaq qarışıq cibinə qoydu. Bizi döyə-döyə saçımızdan tutur, torpaq yedirdib deyirdilər:

— Burda nə gəzirsiniz ki, bu günə də düşəsiniz. Biz bu torpağın pulunu çoxdan vermişik.

Bir kəlmə cavab qaytaranı ya avtomatla vurub öldürür, ya da döyüb ölümcül edirdilər.

Qoca Mikayıl kişi ölümündən qorxmurdu. Ermənıyə dedi ki, ə dığa, bu arvad-uşağa bu zülmü verməyin. Bir nəfər çolaq azərbaycanlı qalsa da, sizə qalib gələcəyik. Bu sözün üstündə Mikayıl kişini o qədər döydülər ki...

Səhər saat ondan saat dördə kimi bizi növbə ilə döyürdülər. Ağdam tərəfdən atəş açılırdı. Baloğlan [34-35] dayını yola çıxarıb məzə üçün qışqırırdılar ki, desin: «Ə, Ağdam, atma, bizik, sizinkilərik». Bizə cürbəcür işgəncələr verib həzz alırdılar. Atəş yaxınlaşanda bizi yığıb Əsgərana apardılar. Xeyli adam qaçıb gizlənə bildi. Mən də qaçıb, uşaqla meşəyə girdim. Burda çoxlu Xocalı vardı. Xudayarın oğlu Eldar, İmran Quliyev bizi çağırırdı. Əvvəl elə bildik ki, ermənilərdir. Sonra Eldarın səsini tanıdım. Çağırdım, onlar idilər. Gəlib yaralıları və bizi meşədən çıxardılar. Onlar ermənilərin komandiri Slaviki də öldürmüşdülər. Onun meyidini də Ağdama gətirdilər. Sonradan Slavikin meyidinə otuz azərbaycanlı girovu dəyişdirildi.

## ƏLAĞALIYA YOLSUZ YOLLARLA

Sərvər Məmməd oğlu Rəcəbov Xocalıda məskunlaşmış məhsəti türklərindəndir. On ildən çox Özbəkistan milis şöbəsində çalışıb. Çoxlu tərifnamələri var. Xocalı özünümüdafiə batalyonunda rota komandiri, sonralar batalyon komandiri olmuşdu.

**Sərvərin dediklərindən:**— Fevralın 25-də türklər məhəlləsindəki postda idik. Birdən aeroport, İnciltəpə, Daştəpə və Noraguğ istiqamətindən atəşə tutulduq. Biz yaşayan evlər taxtadan olduğu üçün BMP-lərdən atılan atəşlər onları yandırırdı. Mən yoldaşlarıma postu tərk etməyi əmr etdim. Özüm isə hələlik gözləyirdim. Kimsə Mehdikənd tərəfdən posta yaxınlaşdı. Betonların arxasından onu avtomat atəşinə tutdum, o yıxıldı. Sonra üç nəfərin yaxınlaşmasını gördüm. Atəş açsam da, onlar yıxılmayıb posta yaxınlaşırdılar. Deyəsən, arxadan yenə də gələnlər var idi. İki dənə qumbara tulladım. Gərək ki, üçü də öldü. Postdan çıxıb evə gəldim. Ailəmiz və qonşularımız qapıda qazdığım zirzəmiyə dolmuşdular. Bir azdan zirzəminin üstü ilə ermənilərin qaçdığını hiss etdik. Əlimdə avtomat qapının ağzını kəsmişdim. Qaranlıq olduğundan onlar buranın zirzəmi olduğunu hiss etməmişdilər. Səhər saat beşə kimi zirzəmidə qaldıq. Tezdən durub, yola düşmək istədikdə atamla-anam getmədilər. Onlar bildirdilər ki, bu qarda, çovğunda nabələd, keçilməz yollarla necə gedə bilərik? Siz gedin. Qonşumuz Qələndərin qızı Zeynəb də burda idi.

[35-36]

Onun 17 yaşı vardı. Özü də gözəl qızdı. O, dedi ki, mən də getmirəm, anam heç bilmirəm harda qalıb. O, inad edəndə avtomatı üstünə çəkdim və bildirdim ki, səni özüm burda atacağam, dur, düş qabağıma. On bir nəfər qadın, qardaşım və mən yola düşdük. Bu yol ilə Həsən kişi və İman üç-dörd gün əvvəl mallarını keçirib Ağdama aparmışdılar (Atamı, anamı bir neçə türklə birlikdə Stepanakertə aparıb, üç gündən sonra buraxmışdılar. Orda ermənilər məni də axtarırmışlar).

Köhnə Noraguğun yanında bir erməni tutdum. Bildirdim ki, bizi Əlağalıya tərəf aparsan, səni salamat buraxacağam. Erməni qabağımıza düşüb, bizi keçilməz meşələrlə gətirdi. Topatılan postunda heç kim yox idi. Erməni bildirdi ki, bütün qüvvələr Xocalıya hücuma gedib. Bu tərəflərdə heç kəs yoxdur. Ermənilərin postuna girdik, çay içib, yenidən yolumuza davam etdik. Mənim beş günlük Azər adlı oğlum da bizimlə idi. Keçilməz pöhrəlik meşəlikdə paltarlarımız cırıqlanıb əynimizdən çıxmışdı. Nəhayət, erməni xeyli aralıda bir kəndi göstərib dedi: —Bax, Əlağalı oradır. İnanmadım. Dedim bizi yəqin, erməni kəndi səmtə yollayır. Erməninin ayaqlarını-əllərini bağlayıb, dörd-beş metrlik bir qayadan itələyib saldım. Bunu belə etdim ki, gedib, başqa erməniləri arxamızca salmasın. Burdan xeyli aralanandan sonra qardaşıma bir qumbara verib dedim:

— Mən o kəndin hansı kənd olduğunu yoxlamağa gedirəm. Sən qadınların yanında dur. Erməni gəlsə, qumbaranı atıb hamınızı məhv edərsən.

Mən kəndə yaxınlaşdım. Fikirləşdim ki, azərbaycanca çağırsam düz çıxmaz. Ermənilər azərbaycanca çağırıb məni tutarlar. Ona görə də fit verdim ki, görüm postdakı adamlar hansı dildə mənə hay verir. Bir-iki dəfə fit verib, göyə bir güllə atdım. Kimsə dedi: — Ayə, kimsən?—Bildirdim ki, Xocalıdan gəlirəm, türkəm, arvad-uşaq gətirirəm.—Gəlin, mənə kömək edin.

On-on beş oğlan gəldi. Məni qayıtmağa qoymadılar. Qadınlardan bir neçəsinin və qardaşımın adını onlara bildirdim ki, gedib onları çağırsınlar. Uşaqlar gedib, çağıranda bizim adamlar gizləndikləri yerdən çıxıb, Əlağalı uşaqlarına yanaşırlar. [36-37] Hamımızı Əlağalı kəndinə gətirib, bizə paltar verdilər, üç gün orda saxladılar. Bizə olduqca yaxşı hörmət etdilər,

## QANLI YAMAC, QANLI YOL

**Məmmədova Dilbər Cəmil qızı:**—Naxçıvanik yolunu keçəndə bizi həm Əsgəran, həm Naxçıvanik, həm də yoldan atəşə tutdular. Güllə dolu kimi yağırdı. Camalın anası Pəri «Vay, məni vurdular!» deyib yıxıldı. Surenin bacısı Əntiqə, Sürəyyanın yeznəsi, Həsənbalanın arvadı, Pərvanə öldü. Pərvanəyə oturulu güllə dəymişdi. Elə oturulu da keçinmişdi. Özümü bir şəlin arxasına verdim. Burda çoxlu adam vardı. Elə bildim ki, güllədən qorunurlar. Bir də gördüm şəlin arxasında olanların hamısı ölüb. Silahlılar da pərən-pərən düşüb qaçışırdı. Xocalı milis şöbəsinin əməkdaşı İnqilab İsmayılov qışqırdı:

— Ə, qeyrətiniz olsun, bu arvad-uşağı qoyub hara qaçırsınız?

Silahlılar qayıdıb İnqilabın yanına getdilər. Bir təpənin üstünə uzanıb Əsgəran tərəfdən atəş açanlara atəşlə cavab verdilər. Bu, erməni atəşinin qarşısını bir az ala bildi. Qarın üstü meyidlə, pal-paltarla dolu idi. Yaralılar yüngülləşmək üçün paltarlarını soyunub atmışdılar. Onların hamısının ətrafındakı qar qıp-qırmızı qan idi. Həm ölənlər, həm də yaralananlar qan gölündə qaralan adaya bənzəyirdi. Həsənbalanın bir qıçını güllə qırmışdı. O sürünür, süründükcə də üzülmüş qıçından arxasınca ağ qarın üstündə qırmızı qan cığırı qalırdı. Güllə Əli Həsənovun sinəsindən dəymişdi. Oğlu Mürsəl Elxanın qızını dalına şələləmişdi. Mürsəl atasına tərəf gedəndə Əli qışqırdı:

— Mürsəl, mənə bənd olma, qaç, qaç! — deyib keçindi.

Oğlum Vaqif mənə bir uşaq gətirib verdi ki, aparım. Bu, Tahirin qızı Həmail idi. Onun atası və anası Zərifə də ölmüşdü. Sürünür, yumalanırdıq. Məzahirin yoldaşı Cahan öldü, qız yaralandı. Məhəddin yaralandı.

Elxanın dayısı Əvəz Elxanın bir yaşlı uşağını tullayıb qaçdı. Uşaq donub ölmüşdü. [37-38] Onu Ağdama gətirəndə nəfəsi vardı. Camaat bir su arxına düşüb sürünürdü. Arx dayaz olduğundan güllələr sürünənləri tuturdu. Yaralılar arxın içində sürünə-sürünə ölənlərin üstündən adlayıb keçirdi. Teymur kişi, arvadı Əsli, qızı Mətanət yaralı halda arxın qurtaracağında uzanmışdılar. Güllə mənim qoluma elə orda dəydi. Gəlinim Emelya da orda yaralandı. Bu dayaz arxın içi ölənlərin və yaralananların axan qanından qıp-qırmızı idi...

## OVÇU MÜRŞÜD

Onun 58 yaşı olmasına, saç-saqqalının ağarmasına baxmayaraq, bədəncə çox sağlam idi. Bütün gecəni yorulmaz, həmişə posta çıxar, başqalarının çıxmasını da təşkil edərdi. Uzun illər ovçuluqla məşğul olmuşdu. Əlindəki beşatılana baxıb deyərdi ki, yüz erməni də gəlsə, qoymaram gözlərini açalar.

Naxçıvanik ərazisində beşatılanı ilə o da camaatın keçməsinə şərait yaradırdı. Nizami Teymur oğlu ilə birlikdə dayanmışdılar. Nizamidə avtomat vardı. Mürşüd Nizamiyə bildirdi ki, təntimə, tələsmə, özü isə tez-tez eynəyini silib gözünə taxırdı. Gələn erməniləri bir-bir aşırırdı. Ölən ermənilərin yanından başqa ermənilər gülə-gülə keçib irəliləyirdilər. Mürşüd kişi eynəyini taxıb, növbəti gələnləri də cəhənnəmə vasil edirdi. O, burda doqquz erməni gəbərtmişdi. Bu, camaatın təhlükəsizliyini qismən təmin etmişdi. Sonra isə Mürşüd kişiyə də erməni gülləsi qismət oldu. Hardansa gələn güllə onun sinəsindən keçdi. Amma qocaman ovçu özünün və hətta bir neçəsinin qisasını aldıqdan sonra dünyasını dəyişdi.

## YÖNÜ QİBLƏYƏ BİR NURANİ

Xocalı qırğınında kəndimizin ağsaqqalı, daim oruc tutub namaz qılan, İsmayıl qurbanı kəsən, Allaha ibadət edən 87 yaşlı bir kişi də dünyasını dəyişdi. O, mənim atam Allahverdi idi. Qardaşım Yaqub, qardaşım oğlu İlham atamı Naxçıvanik yoluna qədər bellərində gətiriblər. Kişi yalvarırmış ki, məni öldürməyin, qoyub gedin. Nə oğlu, nə də nəvə onu qoyub gəlməyiblər. Atışma düşəndə kişi yönünü qibləyə çevirib [38-39] dünyasını dəyişib. həmişə atam deyərdi: — Ay Allah, mənə bala dağı göstərmə!

Allah göstərmədi də. O öldü. Özündən sonra qırılan qardaşı uşaqlarını, qardaşı nəvələrini, bacısı nəvələrini, Xocalının müsibətini, oğlunun, nəvəsinin yaralı kolda, şəldə saatlarla daldalanmasını görmədi. Öldü. Müsibətdən on dəqiqə tez öldü. Allahı tanımayan erməni uşağı, qocanı, qadını da tanımadı. Öldü atam. Özü dağlandı ki, dağları görməsin.

## BƏLƏDÇİM BİR QUŞ İDİ

Hacıyev Rza Lətif oğlu Əlif Hacıyevin qardaşıdır. Milis kapitanıdır. Xocalı faciəsini belə xatırlayır:— Aeroportda idim. Ermənilər kəndə doluşanda bir xəndəkdəki böyürtkən koluna girib gizləndim. Ermənilər camaatın mal-qarasını yığıb aparırdılar. Ruslarla ermənilər bu uğurlarını aeroportda qeyd edirdilər, yeyib-içirdilər. Bir keçi balası mən girdiyim kola yaxınlaşdı. O, sanki mənim iyimi almışdı. Fikirləşdim ki, mənimki bura qədər imiş. Erməni gəlib, keçini Azərbaycan dilində danışdırdı:

— Ay türk, bəri gəl, anandan kabab çəkmişik, di gəl səni də yeyək.

Sanki heyvan məni ələ verməmək üçün bir az uzaqlaşıb dayandı. Erməni qulduru qəhqəhə çəkə-çəkə bıçağı çəpişin ürəyinə sancdı.

Ruslarla ermənilər aeroportda xeyli ləngidilər. Onlar çıxıb getdikdən sonra koldan çıxıb, erməni kəndi olan Ballıca səmtə getdim ki, ordan da Kosalara gedəm. Bu yolu xocalılardan yalnız mən getmişdim. Yolda bir quş uçub, məndən 10-15 metr aralıya qonur. mən ona çatdıqdan sonra yenə də uçub 10-15 metr qabağa qonurdu. Öz-özümə dedim ki, bu quşu, bəlkə, Allah yetirib. Quş bu cür hara getsə ardınca gedəcəyəm. Kolluqların, pöhrəliklərin arası ilə quş uçur, mən də o səmtə gedirdim. Yolda qabağıma eşşəkli iki qoca erməni çıxdı. Mən onlara azərbaycanca «salam» dedim. Onlar da Xocalının qalxan tüstüsünə baxıb, gülə-gülə «barev» dedilər. Mən milli ordu paltarında, silahlı olduğumdan elə hiss etdilər ki, erməni döyüşçüsüyəm. Xocalını zəbt etdiyimiz üçün azərbaycanca danışıram.

[39-40]

Quşla bərabər azərbaycanlılar yaşayan Kosalar kəndinə sağ-salamat gəlib çıxdım. Kosalara çatandan sonra quş harasa uzaqlaşdı.

## OĞLUMUN MEYİDİNİ GƏTİRDİM

**Ələkbərova Nuridə Məhəmməd qızı:**—Şəhər atəşə tutulan vaxt axşam saat 11-də Ələsgər müəllimgilin zirzəmisinə doluşduq. (Xatırladaq ki, Ələskər müəllim yaralı halda girov düşmüş və Stepanakertdə—həbsxanada vəfat etmişdi).

Yoldaşım Təvəkkül postda idi. O, milli ordunun döyüşçüsü idi. Murad adlı milli ordunun bir əsgəri gecə saat 3-də gəlib bizə dedi:

— Tez olun, meşəyə qaçın! Ermənilər və ruslar şəhərə doluşub! Sizi girov götürəcəklər!

Biz Qarqar çayını keçib meşəyə qaçdıq. Qızım Sədaqət ayaqları yalın qaçmışdı. Meşə ilə gəlib, Naxçıvanik yoluna çıxanda saat altı olardı. Bu vaxt erməninin bir «UAZ» markalı maşını Əsgərana keçdi. Aradan 15-20 dəqiqə keçməmiş BTR-lərdən, BMP-lərdən, avtomat və pulemyotlardan bizi atəşə tutdular. Bu vaxt Pərvanəni, onun əri Həsənbalanı, İradəni və Taleh Abbasovu öldürdülər. Talehin iki yaşlı oğlu atasının yanında yaralanmışdı. Ümumiyyətlə, ölənlər və yaralananlar çox idi. Bizi vəhşicəsinə qırırdılar.

Yoldaşım Təvəkküldə avtomat vardı. O, Naxçıvanik yolunda ermənilərlə atışırdı. Mən körpələrimi xilas etmək üçün xeyli irəli qaçmışdım. Birdən Məlahət adlı bir gəlin qışqıra-qışqıra mənə çatıb dedi:

— Həyat yoldaşım Tapdığı, qızım Nazını öldürdülər!

Mən ondan yoldaşım Təvəkkülü görüb-körməməsini soruşanda dedi ki, onu da vurdular. Mən bir az özümü itirdim. Bu vaxt 12 yaşlı oğlum Səxavətə güllə dəydi. Qışqıra-qışqıra camaatdan kömək istədim ki, oğlumu arxama qaldırsınlar. Elxan, Astan Zeynalov mənə kömək edib uşağı kürəyimə qaldırdı. Sonra onun özü də öldü. Yazıq yaralı körpəm hey qışqırırdı:

— Məni yerə qoy, ağrıyıram!

Güllə onun kürəyindən dəyib sinəsindən çıxmışdı. Qan belim aşağı süzülür, ağ qarın üstündə ardımca qırmızı zolaq salırdı. Yarım saatdan sonra oğlum [40-41] belimdə keçindi, Mən başımın yaylığı ilə meyidi kürəyimə bağlayıb, iki körpə də yanımda Qaraqaya istiqamətində sürünə-sürünə gəlirdik. Güllələr isə arası kəsilmədən başımıza yağırdı. İrəlidə qardaşım Qarakişinin ayağından yaralandığını gördüm. Qaraqayaya çatanda Şelli kəndindən tanımadığım iki oğlan köməyimə çatdı. Meyidi kürəyimdən alıb, bizi maşına mindirərək Ağdam xəstəxanasına gətirdilər.

Fevralın 27-də oğlum Səxavəti Ağdam şəhidlər xiyabanında dəfn etdik. həyat yoldaşım Təvəkkülün və bacısı Zərifənin meyidi 24 gündən sonra tapıldı. Onları mart ayının 20-də Uzundərə şəhidlər xiyabanında basdırdıq. İndi biz təsəllini yalnız Xocalıya qayıtmaqda görürük.

## ARAZ SƏLİMOV KİMDİR!

İlk nəzərdə bu oğlan boylu-buxunlu cavanların yanında çox cılız görünərdi. Ancaq 1988-ci ildən erməni—Azərbaycan münaqişəsi başlayandan bəri Araz erməni təxribatlarına qarşı təxribatla cavab verməyə başlamışdı. hələ 1989-cu ildə o, tovuzlu Aliklə birlikdə Daşbulaq yaxınlığındakı körpünü partlatmışdı. Bununla da Stepanakert—Mardakert əlaqəsi xeyli müddət kəsilmişdi. Körpü bərpa olunandan sonra isə körpüdə keşik çəkən erməni keşikçisini öldürmüşdü.

Araz tez-tez erməni ovuna çıxmağı özünə peşə seçmişdi. Mehdikənd fermasının. çobanı Arazın anasına söydüyünə görə o, Vüqarla birlikdə üç gün onu hərlədi və axırda tir tüfəngi ilə vurub atdan yerə saldı və yaxınlaşıb:—Ə dığa, sənin ananı...

Ermənininin yalvarmasına baxmayaraq, bir güllə də təpəsinə çaxmışdı.

Bir gecə Araz Mehdikənd fermasının kolxoz sədrini qətlə yetirmişdi. Partlatdığı körpünün yanında əlində qoşalülə şəldə gizlənərək Qozbulaqda dayanan «Volqa» maşınına atəş açıb dörd erməni öldürmüşdü. Harda bir azərbaycanlı öldürülürdüsə, Araz onun qisasını almayınca dinclik tapmırdı. Xocalı özünümüdafiə batalyonu yaranandan sonra Araza pulemyot da vermişdilər.

Xocalı faciəsində o özünü, atası Bahaduru, qardaşları Fəxrəddini, Mikayılı, əmisi Seydini, Tofiqi, [41-42] bibisi oğlu Vaqifi itirdi. İndi Arazgilin kişi nəslini davam etdirən yalnız onun oğlu üç yaşlı İlqardır. İlqar da odun-alovun içərisindən keçib gəlib.

**İbrahim kişinin dediklərindən:** — Allahın altında ya özüm, ya da oğlanlarımdan biri öləydi, amma Araz ölməyəydi. Fevralın 26-da mən və bir neçə adam Arazla bir xəndəkdə idik. Gözə görünən erməniləri Araz pulemyotla biçirdi. Ermənilər biz tərəfi susdurmağa cəhd göstərsələr də, niyyətləri boşa çıxırdı. Axırda Arazın patronu qurtardı. Biz tərəfdən atəş açılmadığını görən üç erməni gizləndiyimiz xəndəyə yaxınlaşdı. Çıxıb təslim

olmaqdan başqa çarəmiz qalmadı. Yanımızda olan yoldaşların birində bir avtomat vardı. Araz o oğlana dedi:— Sən təslim olursan ol, avtomatı mənə ver. Mən təslim olmayacağam. Al mənim pulemyotumu, çıx.

Oğlan razı olmadı. Araz da cibindən özü üçün saxladığı patronu çıxardıb dedi:

— Gümanım bircə buna gəlir. Onu da özüm üçün döş cibimə qoymuşam.

Bildik ki, o özünü atmaq istəyir. Yalvardım ki, Araz, sən allah, özünü atma.

— Yaxşı, nolar.—deyib, patronu avtomata qoydu. Nişan alıb yaxınlaşan ermənilərdən birini öldürdü. Bizi əsir apardılar. Bizi tutan kimi öz pulemyotunun qundağı ilə vurub Arazın başını yardılar. Araz isə gülürdü. Əsgəranda da Arazı döyəndə bir dəfə də olsun üz-gözünü turşutmadı. Elə hey ermənilərə baxıb gülürdü. O gülə-gülə də öldü.

## XOCALININ SON GÜNÜ

Fevralın 25-i hamı Xocalını bir nəfər kimi tərk etməmişdi. Belə atışmalarda camaat zirzəmilərə dolduğundan ermənilərin kəndə doluşmasından bəzilərinin xəbəri olmamışdı.

**Sara Səyavuş qızı Səlimovanın dediklərindən:**—Anam, mən, bacım və qardaşım Xəzər evdə idik. O biri qardaşım Xaqani milis şöbəsində növbətçi idi. O, bizə demişdi ki, bir hadisə olsa, heç hara getməyin, məni gözləyin.

**Haşiyə:** Xaqani Səlimov qorxmaz bir döyüşçü kimi Xocalıda ad qazanmışdı. O, dəfələrlə ermənilərlə [42-43] atışmada olmuş və xeyli erməni qulduru gəbərtmişdi. Elə həmin gecə ailələrini xilas etmək üçün gələndə beş erməni məhv etmişdi. Əfsus ki, evə gələndə ailələrini tapmamışdı. Xaqani indi də döyüşür.

Ermənilər bizi tutub Noraguğ kəndinə apardılar. Məni maşına qoyub Xocalıya gətirdilər ki, adlarını çəkdikləri adamların evlərini göstərəm. Milli Ordu əsgərləri yaşayan mədəniyyət evini tanıya bilmədim. Tamam yandırılmışdı. Əliş müəllimin darvazasının ağzında iki uşaq, bir qadın öldürülmüşdü. Bu qadın Məhbubə Abışova idi. On iki yaşlı qızı Çinarə böyründə, dörd yaşlı oğlu Çingiz kürəyində qətlə yetirilmişdi. Məni məktəbin yanına gətirdilər. Məktəb də tamam yandırılmışdı. Ordan da çörək zavoduna gətirdilər. Məhəmməd kişinin evinin qabağında bir qadın meyidi vardı. Umudvar kişinin darvazasının ağzında da bir qadın və bir kişi meyidi var idi.

Sonra bizim hamımızı Stepanakertə gətirdilər. Qardaşım Xaqaninin tapançası Xəzərdə idi. Məni, bacımı və anam Tamiləni buraxıb, Xəzəri saxladılar. Anam Xəzərin boynuna sarmaşıb qopmadı. Bizi—iki bacını buraxdılar. Anamla Xəzərdən hələ də bir səs-soraq yoxdur.

**Əliyeva Yeganənin dediklərindən:** — Biz Saday dayıgilin evinin zirzəmisində idik. Ayın 26-da saat 10-11 radələrində çörək zavodunun alt tərəfindən çay aşağı gedirdik. Birdən bizi atəşə tutdular. Lətif kişinin həyat yoldaşı, Saday qıçından yaralandı. Bizi tutub Sevindiyin evinə gətirdilər. Ermənilər oranı qərargah etmişdilər. Bir nəfər «Yeganə, Yeganə...»—deyə çığırırdı. Onu tanıya bilmədim. O qədər döyüşmüşdülər ki, üzü-közü qan içindəydi, tanınmaz olmuşdu. O məndən soruşdu: —Tanımadın? Ələskər müəlliməm. Şəkibəni görməmisən ki?!

— Yox—dedim. Şəkibə Ələskər müəllimin həyat yoldaşı idi.

Süleyman həyətdə bir təndirə girib gizlənmişdi. Təndirin ağzını açıb Süleymanı o qədər döydülər ki... Atası Lətif kişi də orda idi. Ancaq nə edə bilərdi. Bir də bilirdilər ki, Süleyman Əlif Hacıyevin qardaşıdır. Ancaq Lətif dayının familiyası Məmmədov olduğundan Əlifin atası olduğunu bilmədilər. Yoxsa...

[43-44]

Bizi Stepanakertə gətirdilər. Ölümcül halda olan Süleymanı yolda bir şələ tulladılar. Ələsgər müəllimlə Saday da canlarını tapşırdılar.

**Əmir Səlim oğlu Hümbətovun dediklərindən:** — Ayın 26-da səhərə yaxın qapıda idim. Birdən yeddi-səkkiz erməni həyətə doluşdu. Onların başçısı Arno adlı bir erməni idi. Avtomatın qundağı ilə təpəmə vurub, məni yerə sərdilər. huşumu itirdim. Qaldırıb maşına qoyanda özümə gəldim. Məni Stepanakertə aparanda Samantökülən dərənin yanında düşürdülər. Burda saqqallı bir erməni, yaralı bir kişi və bir arvad vardı. Saqqallı erməni baltanı götürüb məni doğramaq istəyəndə erməni arvadı ağlayıb-yalvardı ki, qoca kişidir, onu öldürməyik. O, bu gündən sonra əlinə silah alıb bizimlə döyüşməyəcək ki?!

Mən də yalvardım ki, məni öldürürsünüz avtomatla öldürün. Nə isə məni öldürməyib Stepanakertə apardılar. Bir həftədən sonra buraxdılar. Məni buraxmaq üçün Xocalıdan keçirib, gətirəndə yolun kənarında bir kişi meyidi gördüm. Aşağıda Allahverdi Həsənovun darvazasının qabağında da bir meyid vardı. Amma onların kimlər olduğunu tanıya bilmədim.

## ALLAHA İNANDIM

İsmayıl Əbdüləli oğlu Əliyev də bu hadisədə qarlı, çovğunlu dağlarla erməni quduzlarının əlindən qaçıb qurtarmaq istəyirdi.

**İsmayılın dediklərindən:**— Qaraqayanın üst tərəfindəki su stansiyasının yanında Ağamalı müəllimin oğlu Müşfiq budundan ağır yaralanmışdı. Mən də taqətdən düşüb, onun yanında oturmuşdum. Müşfiq bir qumbara tutub deyirdi:

— Ermənilər gəlsə partladıb özümü də, onları da öldürəcəyəm.

Bir az keçmiş üç nəfər avtomatlı erməni bizə tərəf gəldi. Mən qorxudan donub qalmışdım. Müşfiq arxası üstə uzanıqlı halda qumbaranı əlində hazır tutmuşdu. Ermənilər artıq mənim beş metrliyimdə idilər. Tərpənmədiyimi görüb, biri «ara, merala», yəni «ayə, ölüb» deyərək çıxıb getdilər. Elə həmin andan Allahın varlığına olan şübhəm alt-üst oldu.

[44-45]

## ON İKİ GÜN ÇOVĞUNDA

15 yaşlı Salman Məhəmməd oğlu Qasımov, anası Ayna, qardaşı Ənvər, qohumları Sona, qonşuları Tofiq 12 gün qarlı meşələrdə ac-susuz, olmazın işgəncələr çəkmiş, neçə-neçə Xocalı sakininin dəhşətli ölümünün şahidi olmuşdular.

**Salmanın dediklərindən:** — Atışma başlayanda biz evimizin zirzəmisində idik. Sonra atəşin şiddətləndiyini görüb, dəmiryolun altındakı beton boruya doluşduq. Gecə saat 2 radələrində çayı keçib meşəyə çıxdıq. zirvəyə qalxıb, Abdal-Gülablıya keçmək istəyirdik. Meşədə çoxlu Xocalı sakini vardı. Təpəyə qalxanda bizi qarşı tərəfdən ermənilər atəşə tutdu. Hümbət kişinin oğlu öldü. Əliş Quliyev boynundan yaralandı. Sağa tərəf qaçıb gülədən yayınmaq istədik. Qabağımızı burda da kəsib bizi atəşə tutdular. Türk Abdulla öldü. Mərkəz qarnından ağır yaralandı. Yenidən geri qayıtdıq. Yenə də erməni atəşi ilə qarşılaşdıq. Malik dayı ağır yaralandı. Biz yerə oturduq. Qaryağdı, Salman, Yusifəligil getdilər. Onları gülləyə tutmuşdular. Bilmədik taleləri necə oldu. Biz gecəni oturduğumuz yerdə keçirtdik. Tofiqin anası donub öldü. Malikin qoluna girib meşənin qalın yerinə apardıq. İki gün orda qarın üstündə qaldıq. İki gündən sonra Malik öldü. Doqquz nəfər qalmışdıq. Gəlib bir təpənin alt tərəfində kolların arasında oturduq. Aşağıda böyük bir erməni kəndi vardı. Bizdən iyirmi beş-otuz metr aralı silahlı ermənilər keçib gedirdilər. Onlar bizi görmürdü. Toran düşəndə sıldırımlı yamacı sürüşüb, həmin kəndə tərəf endik. Kəndə bir maşın gəldi. Deyəsən, erməni meyidi gətirmişdi. Camaat qışqırışırdı. Burda Mirvari xalagil də kolların arası ilə gizlənə-gizlənə getdilər. Biz beş nəfər qaldıq. hara getdiyimizi bilmirdik. Gecələr yol gedir, gündüzlər gizlənirdik. Yeməyimiz yalnız qar idi. Gecə gəlib başqa bir kəndə çıxdıq. Bura Şelli kəndi idi. Əvvəlcə oranı erməni kəndi bilib, sola burularaq getdik. Çayı keçib bir qəbiristanlığa çıxdıq. Qar elə möhkəm yağırdı ki. Beş nəfər anam Aynanın balaca şalının altına girmişdik. Qar çoxalanda anam şalı çırpır, yenidən şalın altına doluşurduq. Sən demə, bura Ağdamın Qarağacı qəbiristanlığı imiş. Burda post [45-46] olduğunu görəndə bir az uzaqlaşıb, qəbristanlığın üst tərəfindəki üzümlüyə çəkildik. Posta maşınların gəlib-getdiyini gördük.

Tofiq dedi ki, gedirəm o posta. Gəlməsəm, bilin ki, erməni postudur.

O gedəndən on-on beş dəqiqə sonra dörd nəfər avtomatlı adamın bizə tərəf gəldiyini gördük. Elə bildik ki, ermənilərdir. Mən ayağa dura bilmirdim. Anamgil durub qaçmaq istəyəndə həmin adamlar:—Bacı, qorxmayın, bizik, azərbaycanlıyıq—dedilər.

Bizi maşına qoyub Yaqub Rzayevin qərargahına gətirdilər. Bıçaqla donmuş ayaq sarğılarımızı kəsib çıxartdılar. Bizə isti corab geyindirib, Ağdam xəstəxanasına, ordan da təyyarə ilə Bakı Təcili Tibbi Yardım xəstəxanasına apardılar. Cərrah Nuru Bayramovun səyi nəticəsində həyata qayıtdıq. Bizi Nuru Bayramov üç aydan çox müalicə etdi. Əvvəlcə mənim ayaqlarımı dizimdən kəsmək istədilər. Bayramov tələsməməyi bildirdi. Uzun müalicədən sonra iki ayağımın pəncələrini kəsməyə məcbur oldular. Qardaşım Ənvərin iki, anamın iki, qonşumuz Sonanın üç barmağını kəsdilər. Sağ olsun Nuru həkimi və oranın tibb bacılarını.

İndi kəsilmiş ayaqlarıma baxanda fevral ayının 25-dən mart ayının 8-nə qədər çəkdiyimiz əzab-əziyyətlər yada düşür.

## «BİZİ ÖLDÜR»—DEDİM

